Günəş Şərqdən doğur!

❐ № 185 (5281), 2020-ci il

Qiyməti 40 qəpik

ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 29 dekabr 2020-ci il (çərşənbə axşamı)

Yoluxanların sayı 800-dən aşağı düşdü

3048 nəfər müalicə olunaraq sağalıb

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 772 yeni yoluxma faktı qeydə alınıb, 3048 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

(Səh.9)

İtkin düşmüş 30-dan artıq hərbçi axtarılır

Şəxsiyyəti müəyyən olunmayan 50-dən artıq şəxsin isə identifikasiyası üzrə iş aparılır

Hazırda itkin düşmüş hesab olunan 30-dan artıq hərbi qulluqçunun tapılması üzrə işlər davam etdirilir.

(Səh.3)

Günün içindən...

Hansısa şəhərin, rayonun problemi 1 il gözləyə bilər

Ancaq işğaldan azad olunan ərazilər tez bir zamanda bərpa olunmalıdır

Dünən Milli Məclisin növbəti plenar iclasında büdcə zərfinin müzakirələri davam etdirilib. Deputatlar bir sıra sahələr üzrə sosial xərclərin artırılmasını təklif ediblər. Xüsusən, şəhid ailələri və müharibə veteranlarının sosial müavinətlərinin bir qədər də yüksəldilməsini istəyiblər.

(Səh.3)

Ermənistan daha iki hərbi əsiri Azərbaycana qaytarıb

Azərbaycan da dörd erməni hərbi əsiri Ermənistana təhvil verib

(Səh.8)

Ermənistan öhdəliklərini yerinə yetirməlidir

Türkiyə XİN erməni silahlılarının təxribatına etirazını ifadə edib

Qarabağda silahı buraxmayaraq geri çəkilməkdən imtina edən erməni ünsürlərin Azərbaycan Silahlı Qüvvələrinə qarşı həyata keçirdiyi hücumlar 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanat əsasında təsis edilən atəşkəs rejiminin açıq şəkildə pozulmasıdır.

(səh.6)

Turan qurulur

"Bir millət, beş dövlət" şüarı Kremlin kefini pozub

(səh.8)

UNESCO-dan açıqlama

"Şuşada salamat tarixi bina qalmayıb, 11 məscid məhv edilib"

(səh.7)

Makronun bəyanatı çarəsizliyin ört-basdır edilməsidir

Fransa Prezidenti artıq anlayır ki, Paşinyan nicatı Azərbaycan və Türkiyə ilə əlaqələrdə görür

(səh.5)

Azərbaycana gətiriləcək koronavirus vaksinləri vergidən azad olunur

(səh.7)

Arxayınlaşmaq olmaz

Peyvənd oldu, olmadı maskalardan mütləq istifadə olunmalıdır

(səh.14)



"Şuşaya təxminən 25 nəfərlik heyətlə daxil olduq"

Füzulidən Şuşayadək döyüşən qazi: "...Cəmi 4-5 adam sağ qaldı"

(səh.9)

"Bölgədə rus sülhməramlılarının olması narahatedicidir"

Şəbnəm Şıxəliyeva: "Axı biz hələ əsrlər əvvəl rusların ölkəmizə dəfələrlə işğal cəhdlərinin şahidi olmuşuq"

(səh.7)

Prezident yeni yolun açılışında iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 7,5 kilometrliyindən Masazır dairəsinədək olan hissəsinin yenidən qurulması çərçivəsində görülən işlərlə tanış olub. Dövlət başçısı "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin tərkib hissəsi olan Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun 30 kilometrlik birinci hissəsinin açılışında da iştirak edib.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda son illərdə mühüm sosial və iqtisadi əhəmiyyəti ilə seçilən infrastruktur layihələri həyata keçirilir. Bunlar ümumilikdə ölkəmizin iqtisadi potensialını möhkəmləndirir, əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində aparılan işlərə böyük töhfə verir. Dövlətimizin başçısının sərəncam və tapşırıqlarına uyğun inşa olunan Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil magistralı yol infrastrukturu layihələrinin genişlənməsi, onların daha da müasirləşdirilməsi istiqamətində atılan növbəti mühüm addımdır. Bu layihə çərçivəsində yolun 7,5 kilometrliyindən Masazır dairəsinədək olan hissəsinin yenidən qurulması başa çatıb.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov işlərin icrası ilə bağlı dövlətimizin başçısına məlumat verdi. Layihə çərçivəsində Xırdalan dairəsinin altından keçən avtomobil tuneli genişləndirilib. Hər bir istiqamət üzrə əlavə tunellər inşa edilib. Bundan başqa, yenidənqurma işləri zamanı Xırdalan dairəsinə qalxan və düşən hissələrdə iki hərəkət zolaqlı yol inşa olunub. Görülən işlər bu istiqamətdə yaranan tıxacların qarşısının alınmasında, avtomobillərin hərəkətinin intensivliyinin, sürücülərin və sərnişinlərin təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.

Layihəyə uyğun olaraq Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun Xırdalan dairəsi yaxınlığında yeni dəmir yolu körpüsü də tikilib.

Qeyd edək ki, bundan əvvəlki körpünün texniki göstəriciləri avtomobillərin normal və təhlükəsiz hərəkətinə mane olurdu. Ona görə də həmin körpünün sökülərək əvəzində yeni, müasir standartlara cavab verən körpünün inşası ilə bağlı qərar qəbul edilmişdi. Layihənin icrası şəhərin bu hissəsində tıxacların qarşısının alınmasında, qatarların hərəkətinin təhlükəsizliyində böyük rol oynayacaq.

Prezident İlham Əliyev "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin tərkib hissəsi olan Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun Xızı rayonunun Yaşma və Giləzi qəsəbələri arasında yerləşən 30 kilometrlik birinci hissəsinin açılışında da iştirak edib.

Uzunluğu 150 kilometr olan yeni yol 4 hərəkət zolaqlıdır. Hazırda yeni magistralın Şabran rayonunun Gəndob kəndi və Qusar rayonunun Samur qəsəbəsi arasında yerləşən hissəsində tikinti yekunlaşmaq üzrədir. Yeni istiqamət üzrə inşa edilən bu magistral avtomobil yolu əvvəlkindən 13 kilometr qısadır. Yolun qalan hissələrinin gələn ilin ikinci yarısında yekunlaşdırılması planlaşdırılır. Yeni avtomagistrala Giləzi yaşayış məntəqəsi, Siyəzən və Şabran rayonları, həmçinin Quba-Xaçmaz avtomobil yolu ilə kəsişən ərazidən yol qovşaqları vasitəsilə daxil olmaq mümkündür. Yeni magistral avtomobil yolundan istifadə üçün ödənişin hər kilometr üçün yük və minik avtomobillərinə görə fərqli məbləğdə olması nəzərdə tutulub. Bu yolun inşası beynəlxalq nəqliyyat əməkdaşlığı baxımından strateji önəm daşıyan "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin səmərəliliyini daha da artıracaq. Yolun inşası Azərbaycanın layihədə iştirak edən ölkələrlə iqtisadi əməkdaşlığının daha da genişləndirilməsinə xidmət edəcək. Bundan başqa, yeni avtomobil yolunun tikilməsi nəqliyyat xidmətlərini daha da yaxşılaşdırmaqla yanaşı, bölgədə turizmin inkişafına əlavə təkan verəcək, dəhlizlə yük və sərnişin daşımalarında əsas rol oynayacaq.



Ceyhun Bayramov türkiyəli həmkarı ilə telefonla danışıb

Dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı baş tutub.

XİN-in Mətbuat Xidməti idarəsindən verilən məlumata görə, nazirlər 10 noyabr tarixli üçtərəfli bəyanatın icrası və bölgədə mövcud olan vəziyyəti müzakirə ediblər.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Mövlud Çavuşoğlu Rusiyaya gedir

"Qarabağ məsələsini və atəşkəsə nəzarət mərkəzinin fəaliyyətini müzakirə edəcəyik"

"Bizim Rusiya ilə bir çox sahədə əməkdaşlığımız mövcuddur."

Bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Rusiyaya səfəri ərəfəsində deyib.

O bildirib ki, Soçidə Türkiyə-Rusiya Birgə Strateji Planlama Qrupunun iclasında Dağlıq Qarabağ məsələsi də müzakirə olunacaq:

"Regional məsələlərdə fərqli tərəflərdə olsaq belə, Rusiya ilə əməkdaşlığımız var. Suriyada, Liviyada fərqli tərəflərdəyik, amma Rusiya ilə yüksək səviyyədə əməkdaşlığımız davam edir. Biz Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ məsələsini də müzakirə edəcəyik. Atəşkəsə nəzarət mərkəzinin vəzifəsi və fəaliyyəti barədə müzakirələr olacaq. Azərbaycanın sərhəd təhlükəsizliyi beynəlxalq hüquq çərçivəsində təmin olunmalıdır. Bu məsələdə də gələcəyə yönəlik addımları müzakirə edəcəyik".

Qeyd edək ki, Mövlud Çavuşoğlu dekabrın 29-da Soçidə Rusiya-Türkiyə Birgə Strateji Planlama Qrupunun 8-ci iclasında iştirak edəcək.

"Mədəni irs yalnız ayrıca bir xalqa deyil, bütün bəşəriyyətə məxsusdur"

"UNESCO ilə əməkdaşlıq çərçivəsində Azərbaycan silahlı münaqişələr dövründə mədəni abidələrin qorunması məsələsinə xüsusi diqqət ayırıb". Bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev AZƏRTAC-a müsahibəsində "UNESCO ilə münasibətlərimizin gələcəyi barədə" suala cavabında deyib.

Hikmət Hacıyev: "Azərbaycan UNESCO ilə qarşılıqlı hörmətə əsaslanan əməkdaşlığa hazırdır və özünə münasibətdə eyni yanaşmanı gözləyir"

Prezidentin köməkçisi bildirib ki, Azərbaycan 2011-ci ildə UNESCO-nun silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması üzrə komitəsinə üzv seçilib və onun çərçivəsində fəal üzv kimi təşəbbüslərlə çıxış edib: "2012-2013-cü illərdə komitə çərçivəsində "İşğal edilmiş ərazilərdə mədəni abidələrin qorunması" adlı sənəd müzakirə edilib və qəbul olunub: "Ölkəmizin təşəbbüsü və fəal iştirakı ilə hazırlanmış bu sənəd dünyada olan münaqişələr zamanı, işğal altındakı ərazilərdə UNESCO Katibliyinin mədəni abidələrin qorunması ilə bağlı atmalı olduğu addımları ehtiva edirdi.

Azərbaycanın özü işğaldan əziyyət çəkmiş bir ölkə kimi nəinki yalnız işğal olunmuş ərazilərimizdə, eləcə də bütün dünyada mədəni abidələrin dağıdılması məsələsinə həssaslıqla yanaşıb və UNESCO ilə bu sahədə əməkdaşlığa daim önəm verib. Bizim düşüncəmiz belə olub ki, mədəni irs yalnız ayrıca bir xalqa deyil, bütün bəşəriyyətə məxsusdur.

2016-cı ildə UNESCO tərəfindən Mədəni abidələrin qorunması üzrə ilk "Hərbi bələdçi" hazırlanıb. Bu bələdçi çox önəmli nəşrdir və fərqli dillərə tərcümə edilərək bir çox dövlətlər və beynəlxalq təşkilatlar, o cümlədən NATO tərəfindən istifadə edilir. Bələdçinin hazırlanması üçün maliyyə töhfəsini məhz Azərbaycan verib. Həmçinin onun müəllifləri arasında İtaliya, İngiltərə, Fransa mütəxəssisləri ilə yanaşı, azərbaycanlı ekspert də yer alıb. Bu, ölkəmizin mədəni abidələrin qorunması sahəsinə verdiyi önəmin, eləcə də bu sahədə olan nüfuzunun göstəricisidir.

Həmçinin UNESCO-nun ən mötəbər qurumlarından olan Ümumdünya İrs Komitəsində 2015-2019-cu illər ərzində üzvlüyü zamanı da Azərbaycan silahlı münaqişələr zamanı mədəni irsin qorunması məsələsini daim gündəmdə saxlayıb.

UNESCO ilə əməkdaşlıq Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın daim diqqət mərkəzində olub. Təsadüfi deyil ki, Mehriban xanım Əliyeva 2004-cü ildə Azərbaycan şifahi xalq ədəbiyyatı və milli musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsində xidmətlərinə görə UNESCO-nun xoşməramlı səfiri adına layiq görülüb. Məhz onun təşəbbüsü və dəstəyi ilə istər Azərbaycanda, istərsə də xarici ölkələrdə mədəni irsin qorunması sahəsində önəmli layihələr həyata keçirilib, məktəblər inşa edilib, məscidlər, kilsələr, tarixi abidələr bərpa olunub.

Beynəlxalq hüquqa, beynəlxalq humanitar fəaliyyətə, multikulturalizmə böyük əhəmiyyət verən Azərbaycan UNESCO ilə bundan sonra da səmərəli, konstruktiv, qarşılıqlı hörmətə əsaslanan əməkdaşlığa hazırdır. Azərbaycan UNESCO-dan da özünə münasibətdə eyni yanaşmanı gözləyir".

Hansısa şəhərin, rayonun problemi 1 il gözləyə bilər

Ancaq işğaldan azad olunan ərazilər tez bir zamanda bərpa olunmalıdır

Dünən Milli Məclisin növbəti plenar iclasında büdcə zərfinin müzakirələri davam etdirilib. Deputatlar bir sıra sahələr üzrə sosial xərclərin artırılmasını təklif ediblər. Xüsusən, şəhid ailələri və müharibə veteranlarının sosial müavinətlərinin bir qədər də yüksəldilməsini istəyiblər. Millət vəkili Fəzail Ağamalı deyib ki, veteranlar müharibədən qayıtdıqdan sonra onlar işlə təmin olunmalıdır. Bununla bağlı xüsusi proqram hazırlanmalıdır. Deputat bildirib ki, veteranların işlə təminatını biz həyata keçirməliyik:

"Bununla bağlı problemlərlə qarşılaşa bilərik. Digər tərəfdən istər birinci Qarabağ müharibəsi veteranlarının, istərsə də ikinci Qarabağ müharibəsi veteranlarının sosial müdafiəsi də gücləndirilməlidir. Heç olmasa, yaşayış minimumu həcmində onlara vəsait verilməlidir. 1-ci Qarabağ qazilərini də unutmamalıyıq. Onlara da bu həcmdə vəsait verilməlidir".

"Səngərdəki hərbçilərin uşaqlarının təminatı yaxşılaşdırılmadır"

Millət vəkili Fazil Mustafa isə deyib ki, ümumiyyətlə, Azərbaycanda səngərdə, bölgələrdə əziyyət çəkən, uşağına müəyyən təhsil vermək imkanı olmayan hərbçilərin uşaqlarının təminatı yaxşılaşdırılmadır. Deputat bildirib ki, bu, Bakıda kabinetdən çıxmayan, kresloda oturan hərbçilərə aid deyil: "Dediyim kateqoriyadan olan hərbçilərin uşaqları və ailələri üçün infrastrukturu təmin etməliyik. Söhbət təkcə müavinət verilməsindən getmir. Sovet dövründə zabitlər, hərbçilər üçün belə infrastrukturlar var idi. Yəni bu uşaqların əqli, mədəni inkişafına nail olmalıyıq. Hərbçi ailələri, uşaqları üçün müavinətdən başqa yollar tapmalıyıq. Yaxın 20-30 ildə Azərbaycanın qarşısında böyük proseslər durur. Biz Qarabağda müharibəni udmuşuq, amma hələ dünya ermənilərinə qalib gəlməliyik". Fazil Mustafa 190 manat ödəmənin artırılmasını da təklif edib: "Dövlət əhaliyə yaşayış minimumu həddində yardım edir. İndiyədək bu, 190 manat idi. İndi

yaşayış minimumu 196 manat olacaq".

"Bakıda gecəqondularda məskunlaşanları rayonlara qaytarmağın yollarını tapmalıyıq"

F.Mustafa bildirib ki, hansısa vətəndaş şəhid və qazilərə yardım işinə qoşula bilər. Məsələn, 20 obyektindən birini şəhid ailəsinə bağışlayar, bununla da dövlətə yardım etmiş olar: Yanvar ayından başlayaraq bəzi vacib addımların atılmasına başlamalıyıq. Bakıda gecəqondularda məskunlaşan və işsiz olan insanları bölgələrə qaytarmağın yollarını tapmalıyıq. Bu insanları təsərrüfata qaytarmaq üçün stimullaşdırıcı tədbirlər görülməlidir. İkincisi, ictimai nəqliyyatla bağlı problem həllini tapmalıdır. Biz kiçik görünə bilən məsələlərin həlli istiqamətində təcili surətdə addımlar atmalıyıq. Üçüncüsü, Hesablama Palatasının təqdim etdiyi rəydə özəlləşdirmə prosesinə yenidən baxmağı təklif edirəm. Bu məsələdə şəffaflıq təmin olunmalıdır".

"Veteranlara 150-180 manat müavinət verilsin"

Millət vəkili Siyavuş Novruzov Qarabağ müharibəsi veteranlarına 150-180 manat müavinət verilməsi təklifi ilə çıxış edib. Parlament üzvü vurğulayıb ki, Qarabağ veteranlarına verilən müavinət 50 manatdan 80 manata qaldırılıb: "Lakin qiymətlərdə dəyişiklik olduğu üçün veteranlara verilən müavinət də artmalıdır. Bu vəsait heç olmasa, 150-180 manat həcmində verilə bilər".

"Bəzi şəhid ailələri, qazilər arasında mənzil şəraiti yaxşı olmayanlar var"

Siyavuş Novruzov xatırladıb ki, bəzi şəhid ailələri, qazilər arasında mənzil şəraiti yaxşı olmayanlar var. Onların kommunal borcları da ləğv olunmalıdır:

"Məsələnin mahiyyəti sırf maddiyata yönəldilməməlidir. Maddiyyatı onların igidliklərindən yuxarı tutmamalıyıq. Onlar Vətənin ərazi bütövlüyünü təmin edib, 30 ildir, qəlbimizdə olan yaranı sağaldıb. Bəzisi hətta gizlincə avtobusa minib müharibəyə yollanıb. Ora gedəndə sabah veriləcək pensiyanı düşünməyib. Biz dərsliklərimizə bu qəhrəmanlıqları salmalıyıq. Gələcək nəslə maddiyyatı deyil, qəhrəmanlıqları aşılamalıyıq. Doğrudur, onlar ən yaxşı şəraitə layiqdirlər, sosial təminatı həll olunmalıdır, amma igidliklərini də unutdurmamalıyıq". Deputat qeyd edib ki, digər tərəfdən işğaldan azad olmuş ərazilər ən qısa müddətdə bərpa edilməlidir: "Hansısa şəhərin, rayonun, kəndin problemi 1 il gözləyə bilər. Amma işğaldan azad olunmuş əraziləri tez zamanda bərpa etməli, insanları öz yurd-yuvalarına köçürməliyik".

"Hökumətin üstünə çox gedirsiniz"

Deputat Aqil Abbas isə həmkarlarını tənqid edib. Millət vəkili bildirib ki, hökumətin üzərinə çox yük qoymaq olmaz: "Deputatlar burada təklif edir ki, filan yerə vəsaiti bu qədər artırın, filan yerə 3 milyard artırın. Dövlət büdcəsini hazırlayan mütəxəssislər ölkənin gəliri hesabına bu vəsaitləri bölüb, proqnozlaşdırıblar. Xahiş edirəm, danışanda nəzərə alın ki, hökumətin üstünə çox gedirsiniz. Hökumətin üstünə bu qədər gedəndə, dediyiniz vəsaiti haradan tapacağını da deyin. Bəlkə xaricdən borc alınsın? Biz 44 günlük Vətən müharibəsi zamanı cəbhəyanı kəndlərin birində idik. Həmin kənddə qaz yoxdur. Orada sual edirdilər ki, bizim kəndə nə vaxt qaz çəkiləcək? Haqlı olaraq belə bir irad səsləndirildi ki, Qarabağı azad edək, yoxsa qaz çəkək? Yəni fikir səsləndirəndə 44 günlük ağır müharibədən çıxdığımızı unutmayaq".

"Büdcə insanların sosial müdafiəsini gücləndirəcək"

Millət vəkili Musa Quliyev bildirib ki, gələn il əmək pensiyalarının orta aylıq məbləğinin 340, yaşa görə pensiyaların isə 370 manat olması proqnozlaşdırılır. Deputat bildirib ki, DSMF-nin gələnilki büdcəsi insanların sosial müdafiəsinin gücləndirilməsinə etibarlı təminat yaradacaq: "Gələn ilin dövlət büdcəsində ümumiyyətlə, sosial-yönümlü xərclərin artırılması proqnozlaşdırılır. Bu da Prezident İlham Əliyevin yürütdüyü sosial siyasətin tələbidir".

"Şimali Qafqaz regionu ilə iqtisadi münasibətlər gücləndirilməlidir"

Millət vəkili Tahir Kərimli deyib ki, Şimali Qafqaz respublikaları, Dağıstanla danışıqlar aparmaqla bu istiqamətlərdə iqtisadi fəallığı artıra bilərik. Onun sözlərinə görə, bu danışıqları aparmaqla Şimali Qafqaz regionu ilə iqtisadi münasibətləri daha da gücləndirmək mümkündür. Hərbçilərin əməkhaqqının artırılmasının vacibliyini qeyd edən deputat siyasi partiyalara ayrılan vəsaitlərin də artırılmasını təklif edib. O, Quba-Şamaxı yolu, Ağsu yolları ilə bağlı məsələnin də həllini tapmalı olduğunu söyləyib: "Ağsuda meşə yanğınları oldu. Hökumətdən xahiş edirəm ki, bu istiqamətə də vəsait ayrılsın və meşə massivi bərpa edilsin".

"Qarabağda yenidənqurma üçün ayrıca Fond yaradılsın"

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsini sədri Tahir Mirkişili isə işğaldan azad olunmuş ərazilərin bərpası ilə bağlı vəsaitlərin idarə olunması üçün fond yaradılmasını təklif edib: "İşğaldan azad olunmuş ərazilərdə bərpa işlərinin aparılması üçün 2.2 milyard manat vəsaitin nəzərdə tutulmasını çox müsbət qiymətləndiririk. Növbəti illərdə də bu istiqamətdə vəsaitlərin ayrılması nəzərdə tutulub. İş adamları, xaricdə yaşayan sahibkarlar onlara, deputat həmkarlarına müraciət edərək, bu işlərə dəstək olmaq arzularını bildirməkdədir. Müzakirələrdə deyilən fikirləri də təhlil edərək düşünürük ki, bu məqsədlə ayrıca bir Fondun yaradılması maliyyələşmə və nəzarət mexanizmlərini daha da təkmilləşdirərdi. Fondun vəsaitinin yalnız büdcə hesabına deyil, həm də sahibkarların dəstəyi və beynəlxalq təşkilatlardan ola biləcək qrantlar hesabına formalaşması aparılacaq işlərə mühüm dəstək ola bilər".

İsmayıl

Azərbaycana gətiriləcək koronavirus vaksinləri vergidən azad olunur

Koronavirus pandemiyası ilə əlaqədar Azərbaycana gətiriləcək vaksin və onun şprisləri 2 il müddətində əlavə dəyər vergisindən azad olunacaq.

Bununla bağlı məsələ Milli Məclisin dünən keçirilən iclasında müzakirə edilən Vergi Məcəlləsinə dəyişiklikdə öz əksini tapıb.

Deputatlar bu dəyişikliyi təqdirəlayiq hesab ediblər. Müzakirələrdən sonra dəyişiklik səsverməyə qoyularaq birinci oxunuşda qəbul edilib.

Paytaxt üzrə 127 təhsil işçisi ordu sıralarına qoşulub

Bakı Şəhəri üzrə Təhsil İdarəsindən (BŞTİ) Trend-ə verilən məlumata görə, təhsil işçiləri də Azərbaycanın öz torpaqları uğrunda haqq savaşı apardığı Vətən Müharibəsində fəal iştirak edib.

Belə ki, BŞTİ-nin tabeliyindəki təhsil müəssisələrində çalışan 127 təhsil işçisi Azərbaycan Ordusunun sıralarına qoşulub. Onlardan 122-si müəllim, 5-i direktor müavinidir.

İtkin düşmüş 30-dan artıq hərbçi axtarılır

Şəxsiyyəti müəyyən olunmayan 50-dən artıq şəxsin isə identifikasiyası üzrə iş aparılır

Hazırda itkin düşmüş hesab olunan 30-dan artıq hərbi qulluqçunun tapılması üzrə işlər davam etdirilir.

Müdafiə Nazirliyindən (MN) "Şərq"ə verilən məlumata görə, şəxsiyyəti müəyyən olunmayan 50-dən artıq şəxsin isə identifikasiyası üzrə iş aparılır.

Qeyd edək ki, MN Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçulardan dekabrın 28-dək dəfn edilən 2823 nəfərin foto şəkilləri, adları, soyadları, hərbi rütbəsi və doğum tarixi haqqında məlumat açıqlayıb.

İrəvan qalasındakı bütün tarixi abidələr məhv edilib

1918-ci ildə tarixi Azərbaycan torpaqlarında ilk erməni dövləti olan Ermənistan Respublikası qurulduqdan sonra azərbaycanlılara məxsus maddi-mədəni irsə qarşı vandal münasibət göstərilib, kitabələrin mətni təhrif edilib.

Trend-in məlumatına görə, bunu AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərli deyib.

Onun sözlərinə görə, İrəvan qalasındakı bütün tarixi abidələr, o cümlədən də Xan sarayı və Sərdar məscidi məhv edilib. İrəvan yaxınlığındakı Qaraqoyunlu tayfalarından biri olan Saadlu türk tayfasının başçısı Əmir Saadın dəfn edildiyi Pir Hüseyn türbəsi "türkmən abidəsi" kimi qələmə verilib. Bundan əlavə, Ermənistanın Qarakilsə rayonunun Urud kəndində İslam dininə etiqadın göstəricisi olan abidələrin üzərindəki yazılara əlavə hərflər daxil edilərək tarixi kökləri itirilməyə çalışılıb.

N.Səfərli qeyd edib ki, abidələrin üzərindəki Azərbaycan dilində şeirlər, tarixi həqiqətlər ermənilərin dünyaya car çəkdiyi təhrif olunmuş məlumatların əleyhinə olduğu üçün məhv edilir.

“Azərbaycan tarixində yeni səhifə yazdınız”

Xaricdən Prezidentə yazırlar: “Qarabağı azad etməklə dünyaya dövlətimizin gücünü göstərdiniz”

Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq məktubları göndərməkdə davam edirlər. Onlar Vətən müharibəsində qazandığımız tarixi Qələbəni böyük sevinc və qürur hissləri ilə qarşıladıqlarını bildirir, dövlətimizin başçısına təşəkkür edirlər. Həmin məktubların bəzilərini təqdim edirik:

Özbəkistan, Daşkənd şəhərindən Əhməd Sacdullayev yazır: Salam hörmətli cənab Prezident. Mən 2020-ci il noyabrın 26-da səhər vaxtı televiziya ilə Sizin və Mehriban xanımın hərbi paltarda Dağlıq Qarabağda, Ağdam şəhərindəki məscidi ziyarət etdiyinizi və Məkkədən gətirdiyiniz ”Qurani-Kərim”i həmin məscidə hədiyyə etdiyinizi izlədim. Sizin əhvalınızı, torpaqlarınızın kafirlərdən azad edilməsini görüb xoşbəxtlik hissləri keçirdim. Allah Sizdən razı olsun. Siz ən ali keyfiyyətlərə maliksiniz. İnşallah, ümid edirəm ki, Siz cənnəti görənlərdən olacaqsınız.

İspaniya Krallığı, Marbelya şəhərindən Elbrus Amanov: Möhtərəm cənab Prezident! Xahiş edirəm uzaq İspaniyadan ailəmizin səmimi təbriklərini qəbul edin! Atanızın başladığı müqəddəs işi davam etdirərək Azərbaycanın ərazi bütövlüyünü bərpa etdiniz. Buna görə Sizə təşəkkür edir, evinizə və ailənizə sülh və əmin-amanlıq, ən əsası isə dünyanın bu çətin günlərində Sizə və Azərbaycan xalqına cansağlığı diləyirik!

Fransa, Paris şəhərindən Günel Səfərova: Möhtərəm cənab Prezident! Siz 30 ilə yaxın müddət ərzində işğal altında qalmış Qarabağımızı bizə - Azərbaycan xalqına qaytardınız. Azərbaycan tarixində yeni səhifə yazdınız. Sizin hakimiyyətinizin ilk günündən həyata keçirdiyiniz məqsədyönlü fəaliyyətiniz Azərbaycanımızın bu günü üçün polad təməllər qoymuşdur. Bundan heç bir zaman şübhə etməmişdik. Ümummilli Liderimiz Heydər Əliyevin siyasi kursunun məharətli təmsilçisi olaraq dövlətimizin parlaq gələcəyinin Sizin kimi Prezidentin rəhbərliyi ilə olacağından tam əminik. Cənab Prezident, Sizi Fransada yaşayan azərbaycanlılar adından səmimi qəlbdən təbrik edirik. Bu müşkül zamanda Sizə ilk növbədə möhkəm cansağlığı, uzun ömür, işlərinizdə uğurlar arzu edirik. Qarabağı azad etməklə dünyaya dövlətimizin gücünü göstərdiniz və biz azərbaycanlılara qürurumuzu və məğrurluğumuzu qaytardınız.

Türkiyə, İstanbul şəhərindən Erdal Aksoy: Hörmətli cənab Prezident, Sizi Azərbaycanın əlamətdar tarixi zəfəri, qələbəsi ilə, yenilməz sərkərdə və xilaskar Prezident kimi Azərbaycan xalqını bir yumruq ətrafında birləşdirərək, Qarabağ torpaqlarının işğaldan azad olunması ilə nəticələnən Vətən müharibəsində tarixi, ildırım sürətli qələbəniz münasibəti ilə təbrik etməkdən şərəf duyuram. Məhz Sizin - Ali Baş Komandanın sarsılmaz iradəsi, Azərbaycan Ordusunun peşəkarlığı, rəşadəti sayəsində cəmi 44 gün ərzində düşmən ordusunun hərbi texnikası və şəxsi heyəti darmadağın edilərək doğma Azərbaycan torpaqları düşməndən azad olundu, Azərbaycanın ərazi bütövlüyü bərpa edildi. Vətən torpaqlarının işğaldan qurtarılması ilə nəticələnən bu Vətən müharibəsində şəhid olmuş övladlarımıza Allahdan rəhmət, yaralılara şəfa diləyirəm. Dekabrın 10-da Bakıda, Azadlıq meydanında Azərbaycanın və Türkiyənin prezidentlərinin iştirakı ilə möhtəşəm Zəfər Paradı keçirildi. Siz təkcə düşmənə deyil, hətta bütün dünyaya Türkün əyilməzliyini, vüqarını, həmrəyliyini sübut etdiniz. Bu gün Azərbaycan-Türkiyə həmrəyliyi dostlarımızı sevindirdiyi qədər düşmənlərimizi də məyus etdi.

Türkiyə, İstanbul şəhərindən Arif Aslan: Hörmətli cənab Prezident İlham Əliyev, Sizi Qarabağda qazanılan zəfər münasibətilə təbrik edirəm. Bundan sonra başlanan yeni dövrün Sizin və Azərbaycan xalqı üçün uğurlu, xeyirli olmasını arzulayıram. Bu zəfəri sonsuza qədər xatırladacaq ”Qarabağ Azərbaycandır!” xatirə kompleksinin yaradılması mənim də arzumdur. Bu abidə üçün bilik və bacarığımı əsirgəməyəcəyimi, əksinə, şərəf duyacağımı bildirirəm.

Şirvan şəhərindən İsmayıl Hacıyev: Hörmətli Prezident! Müzəffər Ali Baş Komandan! Sizin rəhbərliyinizlə Azərbaycan dünya tarixində yeni gerçəklik yaratdı və tarixən Azərbaycana məxsus Qarabağ torpaqları hərb gücümüz sayəsində işğalçıdan azad edildi. Məkrli düşmənin bütün hiylə və yalanlarının, hərbi gücünün tükənməsi üçün 44 günlük mübarizə kifayət etdi. Sirr deyil ki, Azərbaycan bu zəfəri hərbi gücü sayəsində əldə edib. Cənab Prezident, Sizi Qarabağ müharibəsində qazanılmış möhtəşəm qələbə münasibətilə təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür arzulayıram. Qoy Sizin rəhbərliyiniz altında Azərbaycan dünyanın ən güclü ölkələri arasında öz yerini tutsun və daim inkişaf etsin.

Ağdam rayonu, Xaçındərbətli kəndindən Afiq Mirzəyev: Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan. Sizin rəhbərliyinizlə, Müzəffər Azərbaycan Ordusu əsl qəhrəmanlıq dastanı yazaraq dilbər guşəmiz olan Qarabağımızı, ünü ilə dünyaya səs salmış Xarıbülbülümüzü işğaldan azad etdi. Bizlərə bu möhtəşəm qələbəni bizə yaşatdığınız üçün Yevlax şəhər ərazisində məcburi köçkünlərə salınmış qəsəbədə məskunlaşan məcburi köçkünlər adından, həmin qəsəbədə fəaliyyət göstərən ”Mənzil Kommunal İstismar Sahəsinin” kollektivi adından və şəxsən öz adımdan Sizə dərin minnətdarlığımı bildirirəm. Biz məcburi köçkünlər Sizin daxili və xarici siyasətinizi dəstəkləyir, hər zaman Sizinlə qürur duyuruq!

Aynurə Pənahqızı

Atəşkəsin pozulmasında Kremlin marağı var

Azərbaycan Ordusu qaldığı yerdən davam etməlidir

Erməni silahlıları Xocavənd rayonunda növbəti təxribata əl atıblar. Rayonun Ağdam (Akaku) kəndi istiqamətində ərazidə gizlənmiş 6 nəfərlik quldur dəstəsi Azərbaycan Ordusunun bölmələrinə hücum edib. Müdafiə Nazirliyinin məlumatına əsasən, xain hücum nəticəsində bir nəfər hərbi qulluqçumuz, əsgər Elmir Qənbərov şəhid olub. Emin Əliyev adlı əsgər isə yaralanıb.

Rusiya istəyir ki, beynəlxalq sülhpərvər qüvvələrin Qarabağa gəlişini əngəlləsin

Görülən tədbirlər nəticəsində qanunsuz erməni hərbi dəstəsinin bütün üzvləri məhv edilib. Vurğulanıb ki, bu kimi hal təkrarlanarsa, Azərbaycan Ordusu tərəfindən qəti tədbirlər görüləcək. Hadisədən sonra açıqlama verən Ermənistan Müdafiə Nazirliyi həmin istiqamətdə heç bir bölməsinin olmadığını və heç bir əməliyyatda iştirak etmədiyini iddia edib. Xatırladaq ki, 10 noyabrda imzalanan Bəyanata görə, erməni silahlıları rus sülhməramlılarının yerləşməsinə paralel olaraq ərazilərimizi tərk etməli idilər. Rus sülhməramlıları tələsik Qarabağa gəlsə də, erməni ordusunun qalıqları hələ də Azərbaycan ərazilərini tərk etməyib. Ekspertlərin fikrincə, Xankəndi və ətraf rayonlarda gizlənmiş silahlı dəstələr tamamilə bölgədən çıxarılmalıdır. Çünki bənzər təxribatların baş vermə ehtimalı böyükdür. Təxribatları rus sülhməramlıları ilə əlaqələndirənlər də var. Onların fikrincə, Rusiya bölgəyə tam nəzarət etmək üçün müxtəlif ssenarilər hazırlayır. Yəni ermənilər vasitəsilə terroru davam etdirməklə, həmin ərazilərin ”təhlükəli” olduğu mesajını verir. Həmçinin, bölgədə öz hərbçilərinin sayını artırmağa səy göstərir. Ona görə də Azərbaycan tərəfi yubanmadan Türkiyə qoşunlarını bu ərazilərə yerləşdirməli və antiterror əməliyyatlarını davam etdirməlidir. Bir sözlə, Rusiya Azərbaycanı ”sürünən” müharibəyə çəkir. Həmişə olduğu kimi hiyləgər və çoxbaşlı oynayır. Halbuki, sülhməramlılar ərazisində olduqları dövlətin qanunlarına istisnasız olaraq əməl etməli və icrasına görə məsuliyyət daşımalıdır. Lakin Rusiya sülhməramlılarının sərgilədiyi davranışlar Azərbaycan qanunvericiliyi ilə ziddiyyət təşkil edir. Onlar nəinki etnik ermənilərі Azərbaycan qanunlarına əməl etməyə dəvət edir, hətta bu qanunların pozulması məqsədi ilə separatçılar üçün əlverişli şərait yaradırlar.

Təxribatla bağlı fikirlərini ”Şərq”lə bölüşən ”Azərbaycan-Erməni” Araşdırmaları Mərkəzinin rəhbəri, Türkiyənin Ərciyəs Universitetinin professoru Qafar Çaxmaqlı bildirib ki, erməni silahlı qüvvələri bölgədən birdəfəlik təmizlənmədikcə belə teraktlar olacaq. Professor bildirib ki, erməni siyasi rəhbərliyi son çıxışında Hadrutun Azərbaycanın nəzarətində qalmasını qəbul etmədiyini bildirir: ”Bir çox erməni terror təşkilatları da açıq bəyan edirlər ki, partizan müharibəsini davam etdirəcəklər. Razılaşma son nəticədə sülh danışıqlarına səbəb olmazsa, belə insidentlər qaçılmaz olacaq. Jirayr Sefilyanın başçılıq etdiyi ”Sasna Tsrer” adlı radikal qrupun üzvləri Qarabağdadır. Rus sülhməramlıları da bunlardan yararlanmağa çalışırlar. Prezident Vladimir Putin illik mətbuat konfransında Qarabağdakı sülhməramlıların sayının artırılmasını istisna etməmişdi. Belə çıxır ki, Moskva atəşkəsin pozulmasında maraqlıdır və burada öz hərbçilərinin sayını artırmaq istəyir. Bunu həm də ona görə edir ki, beynəlxalq sülhpərvər qüvvələrin regiona gəlişini əngəlləsin. Amerika və başqa dövlətlər Qarabağa Skandinaviya ölkələrindən olan sülhməramlı qüvvələrin gətirilməsini istəmişdi. Həmin plan qüvvədə qalır. Rusiya məhz bundan narahatdır, çünki rus sülhməramlılarının beynəlxalq mandatı yoxdur. Azərbaycan Rusiyadan erməni terrorçu qüvvələrinin, ümumən erməni ordu hissələrinin işğaldan azad olunmuş ərazilərdən çıxarılmasını tələb etməlidir. Əgər şərtlərimizə əməl edilməsə, qaldığımız yerdən hərəkətə keçməliyik. Rusiya sülhməramlıları öz missiyanı yerinə yetirmir və bölgədə öz maraqlarına uyğun işlərlə məşğul olurlar”.

İsmayıl Qocayev

Mehridən dəmir yolu xətti mütləq çəkiləcək

Bu məsələdə Ermənistanın söz haqqı tanınmır

Ermənistanın Baş naziri Nikol Paşinyan televiziyaya müsahibəsində Mehri dəhlizindən danışarkən səhvlər fikirlər söyləyib. Baş nazirin iddiasına görə, Azərbaycan birtərəfli qaydada hansısa dəhliz ala bilməz. Onun fikrincə, regiondakı bütün kommunikasiya bərpa olunmalıdır:

"Rusiya Ermənistandakı yol çəkilişinə hazırlıq görməlidir. Bu işi həyata keçirmək üçün ciddi maliyyə tələb olunur"

"Azərbaycan Mehridən dəhliz alacaqsa, o halda Ermənistan öz vətəndaşlarının və yüklərinin Naxçıvan ərazisindən keçid hüququ əldə etməlidir. Qarabağla bağlı üçtərəfli razılaşmada Azərbaycanın birtərəfli şəkildə hüquq əldə etməsindən söhbət getmir. Bununla bağlı heç nə qeyd olunmayıb".

Paşinyan Azərbaycanla sərhəddə delimitasiya prosesinin getməsini də təkzib edib. Bildirib ki, sadəcə dəqiqləşmə işləri aparılır və bu proses sürətlə getməyəcək. Görünür, Paşinyan Laçın dəhlizində ermənilər üçün 5 km-lik təhlükəsizlik zolağının ayrılmasını "unudub". Əks halda absurd iddialar ortaya ataraq, Mehri dəhlizinin qarşılığında Naxçıvandan ikinci "dəhliz" istəməzdi.

Ermənistan baş nazirinin yeni avantürasını "Şərq"ə təhlil edən politoloq İlqar Vəlizadə bildirib ki, reallıq Paşinyanın istək və arzularından tamamilə başqadır. Ekspertin sözlərinə görə, Mehri dəhlizi ilə bağlı Azərbaycan və Rusiya arasında müzakirələr aparılır və burada Ermənistana söz haqqı tanınmır: "Baş nazir Nikol Paşinyan məşhur yalançıdır. Bunu nəinki müxaliflər, hətta onun komandasında təmsil olunan şəxslər də dilə gətirirlər. İndi müzakirəsi gedən Mehri dəhlizi daxil olmaqla vaxtı ilə Azərbaycan və Ermənistanı birləşdirən dəmiryol xətti var idi və fəaliyyət göstərirdi. Münaqişə başlayandan sonra həmin marşrut ləğv olundu. Ermənilər sadəcə Mehri istiqamətində deyil, işğal etdikləri Füzuli rayonunun Horadiz qəsəbəsindən Ermənistana qədər bütün xətləri söküb, dağıtdılar. 10 noyabr üçtərəfli Bəyannaməsində məhz həmin dəmir yolunun bərpasından söhbət gedir. Bununla bağlı anlaşmada konkret müddəa var. Noyabrın sonlarında Rusiya Dəmir Yollarının "Cənubi Qafqaz dəmir yolu" idarəsinin nümayəndələri Mehriyə baş çəkiblər, əvvəlki marşrut üzrə müzakirələr və məsləhətləşmələr aparıblar. Bu işi Rusiya tərəfinin öz üzərinə götürməsi başadüşüləndir. Üçtərəfli bəyannamədə göstərilib ki, Mehri dəhlizini Rusiyanın Federal Təhlükəsizlik Xidməti qorumalıdır. Digər tərəfdən Ermənistan ərazisindən keçən dəmir yol xətti əvvəllər də rusların nəzarətində olub. Ona görə bərpa və mühafizə işlərini birbaşa Rusiya həyata keçirəcək. Ermənistanın məsələyə qarışmaq səlahiyyəti yoxdur".

Analitik vurğulayıb ki, dəmir yolunun çəkilişi xeyli vaxt apara bilər: "Əvvəla Azərbaycan öz ərazisində infrastrukturu yenidən qurmalıdır. Rusiya isə Ermənistandakı yol çəkilişinə hazırlıq görməlidir. Bu işi həyata keçirmək üçün ciddi maliyyə tələb olunur. Pandemiya dövrünü və müəyyən iqtisadi problemləri nəzərə alsaq, prosesin bir qədər yubanacağını proqnozlaşdırmaq mümkündür. Görünür, vaxt uzandıqca Paşinyan sərsəm iddialar səsləndirməyə davam edəcək. Baş nazir fürsətdən yararlanaraq, insanları çaşdırmağa, öz yalanları ilə böyük zərbə almış siyasi nüfuzunu, reytinqini nisbətən yüksəltməyə cəhd göstərir. Ancaq proseslər Paşinyanın istəyindən və dediklərindən fərqli reallaşmaqdadır. Bir müddət sonra ermənilər baş nazirin yalan söylədiyinin şahidi olacaqlar".

İsmayıl Qocayev

Ermənistanın özünə gəlməsi üçün 30 il zaman lazımdır

"İndi Paşinyan bütün hallarda Qarabağ yükündən azad olmaq üçün çalışır"

44 günlük müharibə və acı məğlubiyyət Ermənistanda sosial-iqtisadi böhrana, gərgin mənəvi-psixoloji duruma səbəb olub. Ölkədə daxili qarşıdurma pik həddə çatıb. Hətta Ermənistanın yüksək vəzifəli şəxsləri mövcud durumu etiraf edirlər. Ermənistan prezidenti Aram Sarkisyan bildirib ki, minlərlə gəncin ölümü həm cəmiyyət, həm onların ailələri üçün faciədir.

A.Sarkisyan qeyd edib ki, Ermənistan böyük böhran içindədir: "Bunun ən pisi həm də emosional-psixoloji böhrandır. Çünki təkcə Ermənistan dövlətçiliyinin deyil, erməni insanının imicinə böyük zərbə vurulub. Ağır məğlubiyyət yükünü təkcə Ermənistanın bugünkü nəsli deyil, gələcək nəsil də daşıyacaq".

Politoloq Cümşüd Nuriyev mövcud durumu "Şərq"ə dəyərləndirib:

"Ermənistandakı gərgin vəziyyətin yaşanması 44 günlük müharibənin nəticəsidir. Erməni diasporu və elitası uzun müddət idi ki, Qarabağla bağlı böyük Ermənistan ideyasını həyata keçirmək üçün təbliğat aparırdılar.

Beləliklə, Qarabağ və ətraf rayonları işğalda saxlamaqla bu xəyallarını həyata keçirmək istəyirdilər. Lakin ordumuz ermənilərin bu arzusunu ürəyinə qoydu".

Analitik bildirib ki, Vətən müharibəsi zamanı Ermənistanın 80 faiz hərbi texnikası məhv edildi:

"Ermənistanın hərbi sənayesinə təxminən 2 milyard dollar ziyan dəyib. Döyüş maşınları, tanklar, toplar, S-300 və digər ballistik raketlər Azərbaycan tərəfindən məhv edildi.

Ermənistan kimi kasıb dövlətin müharibədən özünə gəlməsi üçün ən azı 30 il zaman lazımdır. İnanmıram ki, bu müddət ərzində ermənilər nəinki Qarabağda, hətta Ermənistanda qala bilsin.

Çünki onların bölgədə də problemləri var. Gürcüstan və Türkiyə ilə ərazi iddiası mövcuddur. Eyni zamanda indi İranla da münasibətlər o qədər yaxşı deyil.

Belə bir zamanda Ermənistanın daxilində böhranlı vəziyyət hökm sürür. Azərbaycan bütün bunları 1990-cı illərin əvvəllərində yaşayıb. Ermənistan siyasi, iqtisadi, hərbi və ideoloji cəhətdən çöküb.

Onsuz da bir dövlət kimi müstəqil deyildilər, heç vaxt sərbəst qərar qəbul edə bilməyiblər. Paşinyan bütün hallarda Qarabağ yükündən azad olmaq üçün çalışır. Başa düşdü ki, Qarabağ məsələsi Ermənistanı bir dövlət kimi məhvə apararır. Ona görə də çalışır ki, Ermənistanı xilas etsin".

Analitik qeyd edib ki, Paşinyanın devrilməsi Ermənistan üçün daha ciddi bəlalar gətirəcək:

"Çünki ASALA daşnaksütyun hakimiyyətə iddialıdır. Onlar da həddindən artıq separatçılardır və faşizmə meyl edirlər. Bütün hallarda Ermənistanda vəziyyət çox ağırdır. Düşmən ölkənin həyata keçirmək istədiyi provakasiyaların arxasında Rusiya durur.

Amma Rusiyanın özünün də ciddi problemləri var. Rusiya çalışacaq ki, Ermənistana müəyyən qədər kömək etsin. Lakin bütün hallarda Ermənistan bir məqamı yaddan çıxarmalı deyil: Yenidən hər hansı bir addım atsalar, bu, çox baha başa gələcək.

Çünki "dəmir yumruq" bu dəfə başlarına dəysə, inanmıram ki, bir də ayağa qalxa bilsinlər. Onları qızışdıran Rusiya da ağlını başına yığmalıdır".

Yeganə Bayramova

Makronun bəyanatı çarəsizliyin ört-basdır edilməsidir

Fransa Prezidenti artıq anlayır ki, Paşinyan nicatı Azərbaycan və Türkiyə ilə əlaqələrdə görür

Fransa Prezidenti Emmanuel Makron müharibə vaxtı Nikol Paşinyanla mütəmadi əlaqə saxladığını etiraf edib. Ermənistanın "Qraparak" nəşrinin yazdığına görə, Makron kapitulyasiya barədə məlum sənəd imzalandıqdan bir neçə gün sonra erməni icmasının nümayəndələri ilə naharda iştirak edibmiş.

O, Fransa ermənilərinin Paşinyan haqqında fikirləri ilə maraqlanaraq onları diqqətlə dinləyib, erməni baş nazirinin şəxsiyyəti və davranışı ilə bağlı şübhələrini də gizlətməyib. Savaş gedən ərəfədə dəfələrlə onunla əlaqə saxladığını, dəstəyini təklif etdiyini, hətta SMS-lər yazdığını bildirib. Paşinyan onun zəng və SMS-lərinə tez cavab versə də, lakin heç vaxt öz təşəbbüsü ilə Makronla əlaqə saxlamayıb və heç nə xahiş etməyib. Makronu xüsusilə təəccübləndirən məqam o olub ki, Paşinyan noyabrın 10-da sənəd imzalanana qədər, nə də sonrakı dövrdə onunla əlaqə saxlamayıb. Anlaşmanın nəticələrini "yumşaltmaq" üçün imzalanmadan sonra nə etmək mümkün olduğunu soruşmayıb. Fransa prezidenti isə buna "heyrət" edib: "Axı mən ATƏT-in Minsk qrupunun həmsədr ölkəsinin prezidentiyəm. Nə üçün o, imzalanmadan əvvəl və ya ondan sonra məlumat verməyib, yaxud xahiş etməyib?". Beləliklə, Makron müharibə vaxtı Paşinyana sms-mesajlar göndərdiyini dilə gətirməklə ermənipərəst mövqeyini bir daha göstərdi. Açıq-aydın görünür ki, Makron Fransanın ATƏT-in Minsk qrupu həmsədri mandatını yalnız Ermənistanın maraqlarını müdafiə etmək kontekstində anlayıb və buna uyğun hərəkət edib. Makronun açıqlamaları və fəaliyyəti bir daha göstərir ki, Fransa balanslı, ədalətli, həmsədr mandatının tələblərinə uyğun davranmayıb. Şübhə yox ki, rəsmi Paris bundan sonra da qeyri-adekvat mövqe nümayiş etdirməkdə davam edəcək. Fransa prezidenti bu ölkənin erməni lobbisinin, ermənipərəst dairələrinin tam təsiri altındadır və fransızların maraqlarının əksinə olaraq məğlub Ermənistanın vəkili kimi çıxış edir.

Vəhdət Partiyasının sədr müavini, siyasi şərhçi Vasif Əfəndiyev "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycan Silahlı Qüvvələri Qarabağ ətrafı rayonların və keçmiş muxtariyyətin ən strateji məntəqələrini qısa müddətdə işğaldan azad etdi. Analitikin sözlərinə görə, müharibə ərəfəsində Nikol Paşinyan başda olmaqla bütün erməni cəmiyyəti və onların xaricdəki havadarları nokaut vəziyyətinə düşdülər: "Gözlənilməz və sürətli hücumlarımız qarşısınnda çarəsiz qalan Paşinyan boğulmamaq üçün saman çöpündən yapışan insan təsiri bağışlayırdı. Qısa müddətdə darmadağın olacağını anlayan baş nazir fasilə vermədən dünya liderlərinə dəstək üçün zənglər və müraciətlər edirdi. Makronun "Paşinyan SMS-lərimə laqeyd yanaşırdı" ifadəsi qətiyyən reallığı əks etdirmir. Əmin ola bilərsiniz ki, Paşinyan telefonun yaddaşında nömrəsi olan bütün dünya liderlərinə zəng vurub. Makronun bəyanatı çarəsizliyin ört-basdır edilməsidir. Bu da ondan irəli gəlir ki, Fransanın özü çıxılmaz duruma düşmüşdü. Əlbəttə, NATO üzvü olan bir ölkə alyansa razılaşdırmamış Qarabağa hərbi qüvvə göndərə bilməzdi. Həm də fransız əsgərinin Qafqazda döyüşərək ölməyə hazır olması da real deyildi".

V.Əfəndiyev vurğulayıb ki, ümumiyyətlə son 10 ildə Rusiya və Türkiyədən başqa heç bir ölkə öz əsgərlərini başqa ərazilərdə döyüşə göndərməyə həvəs göstərməyib: "Makron erməni icması ilə görüşdə öz açıqlamaları ilə uğursuz Qarabağ siyasətini Paşinyanın üzərinə yükləməyə çalışdı. Burada başqa bir nüans da ola bilər. O da Paşinyanın Türkiyə və Azərbaycana yaxınlaşmaq niyyətindən doğan narahatlıqdır. Ermənistanda sağlam qüvvələr çox yaxşı anlayır ki, bu ölkənin dövlət kimi mövcudluğunun bir yolu var. O da qonşu ölkələrlə normal münasibətlərin qurulmasına nail olmaqdan keçir. Eks-prezident Levon Ter Petrosyanın köməkçisi, Qarabağ danışıqlarının fəalı Jirayr Liparitanın "Ermənistan Türkiyə və Azərbaycanla münasibətləri normallaşdırmalıdır, əks halda çamadanlarını yığışdırıb köçməlidir" fikirləri günün reallığıdır. Bu reallığı dərk etməyən qüvvələr isə tarixin qara səhifəsinə yazılmağa məhkumdur".

İsmayıl Qocayev

Üçtərəfli sazişin ictimaiyyətə açıqlanmayan bəzi detalları var”

Əziz Əlibəyli: “Qafan şəhərindən Əkərək kəndinə gedən avtomobil yolunun tamamilə Azərbaycan tərəfinin nəzarətinə keçməsi əhəmiyyətli prosesdir”

Ermənistanın Qafan şəhərindən Əkərək (Aqarak) kəndinə gedən avtomobil yolu tamamilə Azərbaycan tərəfinin nəzarətinə keçib. Bu barədə Qafan meri Gevorq Parsyan parlamentdə çıxışı zamanı bildirib. O qeyd edib ki, Azərbaycan tərəfi Qafan rayonundan 100 metr məsafədə dayanıb: "Qafana qədər məsafə bir kilometrdir. Qafan şəhəri və bir sıra digər yaşayış məntəqələri ətrafındakı strateji əhəmiyyətli yüksəklikləri Azərbaycan tərəfinin nəzarətinə keçib".

Qeyd edək ki, Azərbaycan Vətən müharibəsində zəfər qazanmaqla tarixi ədalətin bərpasına nail olub. İşğal altında olan torpaqlarımız düşməndən azad edilib. İndi isə Azərbaycanın dövlət sərhədinin tam şəkildə bərpası prosesi gedir.

Tarix boyu məkrli əməllərindən əl çəkməyən ermənilər işğal altındakı rayonlarımızın da sərhədlərində dəyişiklik ediblər. Uzun illər Azərbaycanın işğal altındakı torpaqlarını bir gün mütləq qaytaracağı həqiqətini dərk edən ermənilər bu zaman az da olsa, torpaq ”qopartmaq” niyyəti ilə bir sıra yaşayış yerlərini Ermənistanın rayonlarının inzibati bölgüsünə daxil ediblər. Lakin onların bu həmləsi baş tutmur. Çünki döyüş meydanında və siyasi arenada qalib gələn Azərbaycan haqq mübarizəsində düşmənə bir qarış torpağını belə güzəştə getmək niyyətində deyil. Elə

“Buna Zəngəzura giriş mərhələsi kimi baxmaq lazımdır”

Qafan merinin parlamentdə həyəcan təbili çalan çıxışı da Azərbaycanın Ali Baş Komandanının, hərbçilərinin və qalib xalqının qətiyyətini göstərir.

Mövcud prosesləri ”Şərq”ə şərh edən Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə mütəxəssis Əziz Əlibəyli bildirib ki, 10 noyabr üçtərəfli bəyanatının ictimaiyyət üçün açıqlanmayan bəzi detalları var. Baş verənlərdən sonra belə güman edə bilərik ki, bu detallar içində sərhədlərin dəqiqləşdirilməsi və demarkasiya prosesi yer alıb.

Ekspert vurğulayıb ki, Zəngəzur-Mehri dəhlizindən keçməklə dəmir yolunun inşası məsələsi də bəyanatın ictimaiyyət üçün açıqlanmayan detallarına aiddir: ”Dağlıq Qarabağ və ətrafındakı 7 rayona aid olmayan digər münaqişə ərazilərinin də taleyinə aydınlıq gətirilməlidir. Təxminən son 20 gün ərzində Qubadlı və Zəngilanın ərazi xətləri və sərhəd dəqiqləşdirilməsi üzrə ölkəmizə 20-dən artıq kənd qaytarılıb. Vacib məsələlərdən biri də sərhəd xətlərinin yenidən çəkilməsidir. Sovet dönəmində sərhəd xətləri qeyri-dəqiq olub. Baxmayaraq ki, Azərbaycan ərazisi hesab edilib, amma ermənilər orada bir neçə kənd salıblar. O cümlədən Qafan aeroportunun təxminən 100 metrlik məsafəsində kənd yaradıblar. Sovet dönəmində Azərbaycanın sərhədboyu ərazilərindən təsərrüfat məqsədilə istifadə ediblər. Yəni həmin ərazilərin kimə məxsus olduğuna dair dəqiq məlumat olmayıb”.

“Bu prosesi Kərki və Qazaxın işğal edilmiş kəndləri ilə bağlı da görəcəyik”

Hazırda sərhədlərdə demarkasiya prosesinin aparıldığını söyləyən mütəxəssis bildirib ki, Azərbaycan bunu ”GPS” sistemindən istifadə etməklə dəqiqləşdirir: ”Ermənistan tərəfdən isə bu posesi Rusiya sülhməramlıları izləyir. Ona görə də 10 noyabr sazişindən belə başa düşmək olar ki, bu məsələlər ruslarla razılaşdırılıb. Hətta bu günlərdə sərhədin dəqiqləşdirilməsi ilə bağlı Rusiya Dövlət Komissiyasının sədri də gəlmişdi. Rusiya və Azərbaycan arasında sərhədin dəqiqləşdirilməsi təcrübəsi var. 2010-cu ildə bizim sərhədlər dəqiqləşdirildi. Bu, Rusiya imperiya tarixində ilk razılaşma idi ki, hansısa dövlət müharibəsiz olaraq şimal qonşumuzla sərhədləri dəqiqləşdirir”.

Ə.Əlibəyli qeyd edib ki, Qubadlı və Zəngilan ərazilərini Ermənistanla sərhəd boyunca nəzərdə tutulur: ”Bu bölgələrdən üzü Zəngəzura doğru bütün yüksəkliklər Azərbaycan Ordusunun nəzarətinə keçib. Bu bölgələr 1929-cu ildə qeyri-qanuni şəkildə düşmənə verilib. İndi isə Ermənistandan geri istənilə bilər. Ona görə də buna Zəngəzura giriş mərhələsi kimi baxmaq lazımdır. Bu baxımdan Qafan şəhərindən Əkərək kəndinə gedən avtomobil yolunun tamamilə Azərbaycan tərəfinin nəzarətinə keçməsi əhəmiyyətli prosesdir. Məsələn, bu prosesi Kərki və Qazaxın işğal edilmiş kəndləri ilə bağlı da görəcəyik.

Tovuz və Gədəbəydə müəyyən mərhələlər ərzində düşmənə qeyri-rəsmi şəkildə hektarlarla torpaq verilib. Əminəm ki, bu bölgələrin də dəqiqləşdirilməsi həyata keçiriləcək”.

Yeganə Bayramova



Ermənistan öhdəliklərini yerinə yetirməlidir

Türkiyə XİN erməni silahlılarının təxribatına etirazını ifadə edib

Qarabağda silahı buraxmayaraq geri çəkilməkdən imtina edən erməni ünsürlərin Azərbaycan Silahlı Qüvvələrinə qarşı həyata keçirdiyi hücumlar 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanat əsasında təsis edilən atəşkəs rejiminin açıq şəkildə pozulmasıdır.

Türkiyə Xarici İşlər Nazirliyinə istinadla xəbər verir ki, bu fikirlər nazirliyin sözçüsü Hami Aksoyun Azərbaycanın Xocavənd rayonunda baş verən erməni təxribatları ilə bağlı açıqlamasında ifadə olunub.

Açıqlama deyilir: ”Daha əvvəl 26 noyabr, 8 və 11 dekabr tarixlərində, son dəfə isə dekabrın 27-də baş verən erməni silahlı ünsürlərin hücumları nəticəsində hərbi və mülki itkilər, eləcə də yaralılar olmuşdur. Üçtərəfli bəyannaməni imzalayan tərəflərdən biri kimi bütün erməni ünsürlərin çəkilməsinin və atəşkəs rejiminə əməl edilməsinin məsuliyyətini Ermənistan daşıyır.

Azərbaycan tərəfi erməni silahlı ünsürlərinin davam edən təxribatlarına qarşı qanuni müdafiə haqqından istifadə edərək lazımı cavabı verib. (azərtac)

Bölgədə davamlı sülhün bərqərar olması üçün Ermənistanın cəbhədəki gerçəkliyi qəbul etməsi və üçtərəfli bəyənnamənin öhdəliklərini yerinə yetirməsi tələb olunur.

Baş verənlərlə əlaqədar olaraq hücumlar nəticəsində həyatını itirən azərbaycanlı qardaşlarımıza Allahdan rəhmət, yaralılara şəfa, bütün Azərbaycan xalqına başsağlığı veririk”.

“Dərmanlar piştaxta altından satılır”

Millət vəkili Zahid Oruc Parlamentdə gələn ilin dövlət büdcəsi haqqında müzakirə zamanı maraqlı nüanslara toxunub. Deputatın sözlərinə görə, bu il göstərdi ki, icra orqanlarında ciddi problemlər, həmçinin korrupsiya ilə bağlı nöqsanlar var. Parlament üzvü hökuməti bu sahəyə nəzarəti artırmağa çağırıb.

Z.Oruc həmçinin 2021-il üçün səhiyyə xidmətinə 1,4 milyard manat ayrıldığını, bunun yaxşı rəqəm olduğunu deyib: ”Ölkə üçün əsas problem COVİD-19-dur. Bu virus heç bir təbəqədən olan insanlara rəhm etmir. Hər kəs Prezidentin müharibə çağırışına dərhal səs verdi, 44 gün ərzində düşmənlə mübarizə apardı. Arxa cəbhədə olanlar çörəklərini ön cəbhədəkilərlə bölüşdü, beləcə erməni adlı şərə qalib gəldik. Səhiyyə sistemində də belə birlik olmalıdır. Səhiyyə Nazirliyi və TƏBİB-ə güvən aşağıdır. Hesab edirəm ki, müvafiq qurumlar bu istiqamətdə nəzarəti gücləndirməlidir. Dərmanların qiymətləri bahadır və bu, ciddi problemdir. 40 manata olan ”Favipiravi” 500 manata satılır. Əslində bu, cinayət əməlidir”.

Natiq Cəfərli: “Çıxış yolu bazarın liberallaşdırılmasıdır. Bazarda oyunçu sayı artmalıdır”

Mövcud durumdan çıxış yolları barədə “Şərq”ə açıqlama verən iqtisadçı-ekspert Natiq Cəfərli bildirib ki, hazırda dərman qıtlığı və qiymətləri kifayət qədər həssas mövzulardan biridir. Ekspertin sözlərinə görə, virusun geniş yayılması və xəstə sayının çoxalması səhiyyə ilə bağlı problemləri üzə çıxardı: ”TƏBİB və Səhiyyə Nazirliyinin bəzən koordinasiya olunmadan və biri-birlərinin işini tamamlamadan fəaliyyət göstərmələri bu sahədə ciddi islahatlara ehtiyac olduğundan xəbər verir. Bir neçə il öncə dərman bazarının molekul qaydada tənzimlənməsi qərara alındı. Bu qərarın sona qədər yerinə yetirilməsi üçün müvafiq sistem yaradılmadığını görürük. Çünki molekullara uyğunlaşdırılmış tənzimlənən qiymət siyasəti tələb və təklif qaydalarına uyğun deyil. Bu durum bazar oyunçularının sayını daraltdı. Beləliklə, bazarda inhisarçılığın artması baş verdi. Kiçik şirkətlər rəqabətə tab gətirmədilər, bazardan çıxdılar, müflis oldular və ümumiyyətlə, Azərbaycanı tərk etmək məcburiyyətində qaldılar. Bazarda yalnız bir neçə iri şirkət qaldı. Onlar da dominant rol oynamağa və

qiymətləri diktə etməyə başladı”.

İqtisadçının fikrincə, qiymətin tənzimləmə siyasətindən tamamilə əl çəkilməli, qiymət tənzimlənməsinə iqtisadi üsullarla gedilməlidir, dövlət tənzimlənməsi ilə yox: ”Sovet dönəmində də görürdük ki, piştaxta altından hər şey satılırdı, amma piştaxtalarda heç nə yox idi. İndi də eyni durum yaranıb. Müəyyən insanlar apteklərdən kənarda dərmanları baha qiymətə satır, apteklərdə isə bu dərmanlar tapılmır.

Çıxış yolu bazarın liberallaşdırılmasıdır. Yəni bazarda oyunçu sayı artmalı, rəqabətli mühit olmalı, bazara girən oyunçular üçün maneələr aradan qaldırılmalı, lisenziyaların verilməsi tezləşdirilməlidir. Dövlət də qiyməti tənzimləmək üçün gömrük və vergi alətlərindən istifadə etməlidir. İndiki pandemiya şəraitində gömrük rüsumları sıfırlanmalı, əlavə dəyər vergisindən azad edilməlidir.

Dövlətin dərmanlara qiymət qoyması doğru yol deyil. Nəticə etibarı ilə bugünkü vəziyyət yaranır: Qıtlıq və piştaxta altından satış formalaşır. Gömrük və vergi rüsumlarını ən azından 1 il müddətinə sıfırlamaq lazımdır. Belə tənzimləmə olsa, daha yaxşıdır. Bizdə isə ancaq cəza metodundan istifadə etməyə çalışılır.

Bu, düzgün yanaşma deyil. Zor gücü və hansısa cərimələrlə problemlərin qarşısını almaq mümkün olmayacaq”.

Yeganə Bayramova

Şəbnəm Şıxəliyeva: “Axı biz hələ əsrlər əvvəl rusların ölkəmizə dəfələrlə işğal cəhdlərinin şahidi olmuşuq”

“Bölgədə rus sülhməramlılarının olması narahatedicidir”

Vətən müharibəsi artıq geridə qalsa da, yenə müzakirələrin, dialoqların əsas mövzusudur. İnsanlarımız sanki qələbədən danışmaqdan doymurlar. Əlbəttə, təbiidir. Çünki biz təkcə torpaqlarımızı azad etmədik, həm də bütün dünyaya gücümüzü göstərdik. Hərb meydanında da, diplomatik müstəvidə də, informasiya cəbhəsində də düşmənə və bizi istəməyənlərə sözün əsl mənasında dərs keçdik.

Elə bir dərs ki, əks-sədası planetin ayrı-ayrı yerlərindən gəlməkdədir. Bu və ya digər səbəbdən xaricdə yaşayan minlərlə vətəndaşımız indi öz tanışlarına, oralardakı iş yoldaşlarına Qarabağdan daha fərəhlə danışırlar. Həmin anlarda təkcə üzlər yox, gözlər də gülür.

Bax, belə soydaşlarımızdan biri də ”Şərq”in növbəti müsahibi, Oman sultanlığının Sultan Qabus Universitetinin müəllimi Şəbnəm Şıxəliyevadır.

- 44 günlük İkinci Qarabağ müharibəsinə dair bağlı fikirlərinizi bilmək istərdik.

- Biz bir çox müsbət xüsusiyyətlərə malik, o cümlədən mədəni, sülhsevər xalqıq. Tarixi torpaqlarımızın işğalı ilə heç bir halda barışa bilməzdik. Azərbaycan tərəfi uzun illər məsələnin sülh yolu ilə həllinə çalışdı. Həm də ona görə ki, müharibə məsuliyyət tələb edən çox ciddi prosesdir. Nə vaxt, necə bitəcəyi məlum deyil. Lakin insanlarımızın səbri artıq tükənmişdi. Vaxtı ilə ata-baba torpaqlarından zorla didərgin salınmış camaat indi vətəninə qovuşmaq üçün sözün əsl mənasında alışıbyanır, səbirsizlənirdi. Erməni vandalizminə son vermək lazım idi. Atəşkəsi pozmaqla dəfələrlə təxribat törədən, yeni torpaq iddialarında olan düşmən layiqli cavabını aldı. Müharibədə əldə etdiyimiz qələbə bunun bariz təzahürüdür.

- Hərbi əməliyyatlar dövründə sosial şəbəkələrdə bir qrup insanın başlatdığı ”no war” kampaniyası barədə nə deyə bilərsiniz?

- Nəzərə almalıyıq ki, Ermənistanla problemimiz yalnız ərazi məsələsi yox, həm də etnik münaqişədir. Onlar körpələrinə hələ beşikdəykən ”Türk sənin düşmənindir” ”tərbiyəsi” verirlər. Qonşuluq dəyərlərinə sadiq, həssas qəlbli xalqımıza qarşı da heç vaxt səmimi olmayıblar. Əsrlər boyu suyumuzu, çörəyimizi bölüşdüyümüz, torpağımızı oğurlayan xain qonşumuzun məkrli siyasətinə qarşı heç bir güzəşt olmamalıdır.

- Bilirik ki, musiqi adamları üçün Şuşanın xüsusi özəlliyi var. Maraqlıdır, noyabrın 8-də həmin rayonumuzun azad edildiyini eşidəndə hansı hissləri keçirdiniz?

- Əlbəttə, vətənin hər qarışı, hər bölgəsi mənim üçün əziz və doğmadır. Şuşa isə Qarabağın ürəyidir və onun taleyi məni çox narahat edirdi. Şuşa çox mürəkkəb relyefdə yerləşir. Bu, əsgərlərimiz üçün çətinlik yarada, neçə-neçə ailənin gözü yaşlı qalmasına səbəb ola bilərdi. Əlbəttə, digər bütün istiqamətlərdə olduğu kimi, orada da şəhid verdik. Amma məqsədimizə çatdıq. Çünki Prezident, Ali Baş Komandanın da dediyi kimi, Şuşasız bizim işimiz yarımçıq qalardı. Ordumuzun hünəri, rəşadəti və seçilən düzgün taktika sayəsində məqsədimizə çatdıq. Azərbaycan Ordusu qanı, canı bahasına Şuşanı azad etdi. Düşməni lərzəyə salan cəsur Azərbaycan əsgərinin döyüşə necə atıldığını hətta qarşı tərəfin rəsmilərinin müsahibələrində də oxuyurduq. Onlar bu qələbəni indiyədək həzm edə bilmirlər. Onu da deyim ki, döyüş iştirakçılarının, o cümlədən qazilərin açıqlamalarını oxuduqca müharibənin reallıqlarını bir daha anlayırıq. 44 günlük döyüşlər əsgərlərimizin yazdığı tarixdir.

- Şuşanın musiqi ənənələri, tarixi ilə bağlı nə deyə bilərsiniz?

- Yay tətillərinin birində Azərbaycanın gözəl guşələrindən Qubada qonaq idim. Ev sahibinin kitabxanasındakı kitablardan biri diqqətimi çəkdi. O, Firudin bəy Şuşinskinin ”Azərbaycan xalq musiqiçiləri” idi. Uzun illərin axtarışlarının nəticələri olan həmin kitab Şuşa şəhərinin musiqi tariximizə bəxş etdiyi ustad sənətkarlar haqqındadır. Hər daşına, qayasına musiqi hopan Şuşaya hələ o vaxtlardan heyran olmuşdum. XIX əsrdə Şuşada Xarra Qulunun, Molla İbrahimin təşkil etdiyi musiqi məktəblərində milli musiqimiz gənc nəslə ustad-şagird ənənəsi ilə öyrədilirdi. Şuşanın ”Qafqazın konservatoriyası” adlandırılması heç də təsadüfi deyil. Bu məktəbin nümayəndələri Azərbaycanın hüdudlarından kənarda da vətənimizi layiqincə təmsil edirlər. Mir Möhsün Nəvvabın, Xan qızı Natəvanın təşkil etdiyi musiqili ədəbi məclislərdə şeiriyyatımızı, muğamlarımızı ”cilalamaq” milli musiqimizin inkişafına xüsusi töhfə verib. Əbdürrəhim bəy Haqverdiyevin təşkil etdiyi musiqi səhnələri və Şərq konsertləri ilk dəfə məhz Şuşada baş tutub. Qanun ifaçısı olaraq əlavə edim ki, bu alət üçün yazılmış ilk əsəri qəlbində vətən həsrəti daşıyan və bu dünyadan nisgillə köçən Süleyman Ələsgərov bəstələyib. Gözoxşayan, səfalı təbiəti olan Şuşanın incəsənətimizə verdiyi bitib-tükənməz töhfələrin bundan sonra da davamlı olmasını arzulayıram.

- Müharibə ilə bağlı xəbərləri hardan alırdınız?

- Ölüm saçan müharibələr zamanı bütün diqqət cəbhəyə yönəlir və ciddi gərginlik yaranır. Şükür ki, ordumuzun qələbələri həmin gərginliyi sevincə çevirirdi. Əlbəttə, bu istiqamətdə müxtəlif xəbər portalları, saytlar da xüsusi fəallıq göstərirdi. Tanımadığımız insanlar belə, bizə doğma gəlirdi. Çünki ortaq amal hamımızı birləşdirmişdi. Xalqımız Ali Baş Komandanın ətrafında birləşərək bir daha həmrəylik nümayiş etdirdi. Hər kəs öz sahəsində ordumuza bacardığı qədər dəstək olmağa çalışırdı. Nəhayət, artıq torpaqlarının iyirmi faizi işğalda olan tərəf kimi tanınmaqdan qurtulduq. Şübhəsiz, cənab Prezidentin yerli və əcnəbi dillərdəki müsahibələrini fərəhlə izləyir, oxuyurduq. Sosial şəbəkələrdə paylaşılan foto və videolar, həmçinin qələbə təqvimləri bizə başa salırdı ki, bütün bunlar yuxu deyil. Belə bir sevinc yaşadığımız üçün vətənimizin mərd oğullarına borcluyuq. Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyir, hər birinin valideyninin qarşısında baş əyirəm.

- Qarabağ müharibəsinə Omanda münasibət necədir?

- Buranın yerli vətəndaşları hər işə sakit və təmkinlə yanaşırlar. Təbiətləri, xarakterləri belədir. Əlbəttə, müharibə onlar üçün də arzuolunmazdır. Telekanallar hərbi əməliyyatlar barədə heç bir məlumat vermirdi. Yalnız bir saytda - ”Arabic. rt.com” bu haqda müntəxülyasından bəhs edirdim. Belə məlumatlar vasitəsilə münaqişənin kökündə nəyin dayandığını bildikdən sonra Azərbaycanı, haqlı davamızı dəstəklədiklərini bildirdilər.

- Maraqlıdır, Ermənistan Baş naziri Nikol Paşinyanın aciz durumunu nə ilə müqayisə etmək olar?

- Onun vəziyyətini düşünəndə məşhur ”Dərviş Parisi partladır” filmindəki ”Hər bir köhnə dərvişin...” sözləri ilə başlayan mahnını xatırlayıram. Paşinyanın qarmaqarışıq fikirlərlə dolu müsahibələrinin yalan üzərində qurulması məhz həmin Dərvişi yadıma salır. Həmçinin onun sərişтəsiz, təcrübəsiz siyasətçi kimi mövcud vəziyyəti düzgün qiymətləndirə bilməməyi, Azərbaycana dair yanlış fikirdə olması öz təsdiqini tapdı. Özgə torpaqlarında dövlət qurmuş, özünə tarix uydurmuş və dünyanı da bu yalana inanmağa təhrik edən ermənilərə elə bu cür siyasi fiqur yaraşır.

“Ali Baş Komandanın əmri ilə 30 ildir əsarətdə olan torpaqlarımızı cəmi 44 günə qaytaran Azərbaycan əsgəri özü Qarabağda həm də asayişi təmin etməyə qadirdir”

- Tarixi qələbəmizi necə qiymətləndirirsiniz?

- Əlbəttə, cəbhədən ard-arda gələn qələbə xəbərlərindən sonra noyabrın 10-da imzalanan bəyanat bizim üçün həm sevindirici, həm də gözlənilməz idi. Sənəddə Azərbaycanın lehinə çoxsaylı maddələr var. Düzdür, daha çox itki olmayacağını nəzərə alsaq, atəşkəs bizi sevindirdi. Amma bölgədə rus sülhməramlılarının olması narahatedici məqamdır. Axı biz hələ əsrlər əvvəl rusların ölkəmizə dəfələrlə işğal cəhdlərinin şahidi olmuşuq. Ali Baş Komandanın əmri ilə 30 ildir əsarətdə olan torpaqlarımızı cəmi 44 günə qaytaran Azərbaycan əsgəri özü Qarabağda həm də asayişi təmin etməyə qadirdir. Uzun müddətdir təşnə olduğumuz qələbəni dadmaq çox möhtəşəm duyğudur. Zəfər paradı da ordumuzun qələbəsinə layiq şəkildə keçirildi.

Paradı döyüş epizodlarını təsəvvürümdə canlandıraraq böyük fəxarətlə izləyirdim. Qalib xalqın nümayəndəsi olmaq çox şərəflidir. Qələbə sevincini bizə yaşadan Rəbbimizə sonsuz şükürlər olsun!

Kənan Novruzov



UNESCO-dan açıqlama

“Şuşada salamat tarixi bina qalmayıb, 11 məscid məhv edilib”

İşğaldan azad olunan Şuşa şəhərində 11 məscid dağıdılıb.

Bu barədə Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəliyinin ”Twitter” hesabında yazılıb.

”Azərbaycan şəhəri olan Şuşada salamat qalmış tarixi-mədəni abidə yoxdur. İlkin qiymətləndirmələrə görə, şəhərdə 11 məscid dağıdılıb”, - deyə qeyd edilib.

Şuşaya yeni polis rəisi təyin edilib

Səməd Məhərrəmov Vətən Müharibəsinin iştirakçılarından olub

Şuşaya yeni polis rəisi təyin olunub. APA-nın əldə etdiyi məlumata görə, bu barədə daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov əmr imzalayıb.

Polis polkovnik-leytenantı Səməd Akif oğlu Məhərrəmov Şuşa Şəhər Polis Şöbəsinin rəisi təyin edilib.

Qeyd edək ki, S.Məhərrəmov Vətən Müharibəsinin iştirakçılarından olub. O, bundan əvvəl Goranboy Rayon Polis Şöbəsində çalışıb.

Azərbaycandan təhvil alır

Gürcüstan gələn ildən GUAM-a sədrlik edəcək

“2021-ci il Gürcüstan üçün çox məhsuldar və məsuliyyətli il olacaq. Gürcüstan gələn il yanvarın 1-dən 2022-ci il yanvarın 1-dək GUAM-a sədrlik edəcək. Bu, bizim üçün çox qürurvericidir”.

Azərtac xəbər verir ki, bunu Gürcüstanın xarici işlər naziri David Zalkaliani GUAM-ın Xarici İşlər Nazirləri Şurasının onlayn formatda keçirilən toplantısında söyləyib.

Nazir ölkəsinin GUAM-a sədrliyi dövründə görəcəyi əsas işlərdən danışıb. Bildirib ki, Gürcüstan 1 illik sədrlik dövründə təşkilat daxilində qarşılıqlı əlaqələri, siyasi, sektorlararası və parlamentlərarası əməkdaşlığın gücləndirilməsini, həmçinin insanlar arasında əlaqələrin dərinləşdirilməsini diqqət mərkəzində saxlayacaq.

Qeyd edək ki, Gürcüstan GUAM-a sədrliyi Azərbaycandan təhvil alacaq.

Turan qurulur

"Bir millət, beş dövlət" şüarı Kremlin kefini pozub

Azərbaycanın şanlı zəfəri ilə yekunlaşan Vətən müharibəsi Qafqaz və Orta Asiyadakı türk ölkələrini də canlandırıb. Bu məqam günlərdir Rusiya mediasında müzakirə olunmaqdadır. Son proseslərdən sonra Türkiyənin regiondakı güclü rolunu və savaşın nəticələrini analiz edən "Moskovski komsomolets" qəzeti Ankaranın Orta Asiyadakı türk respublikaları ilə yeni hərbi-siyasi blok yaratmağı planladığını yazıb.

Türkiyənin Özbəkistan, Qırğızıstan kimi ölkələrlə hərbi anlaşmalar imzaladığını, Qazaxıstanın "Bayraktar TB2" almağı hədəflədiyini qeyd edən qəzet yeni ittifaqa ilk qatılacaq ölkənin Türkmənistan olacağını səhifələrinə daşıyıb. Nəşrə görə, Türkiyə və Azərbaycan arasındakı "Tək millət, iki dövlət" şüarının yerini indi "Tək millət, beş dövlət" almağa başlayıb.

Türkiyə hərbçiləri yubanmadan Qarabağın dağlıq hissəsinə, Xankəndinə yerləşdirilməlidir

"Sivilizasiyalar və konfliktlər" Analitik Mərkəzinin rəhbəri Əhəd Məmmədli "Şərq"ə deyib ki, Ankaranın məqsədi türk dünyasının birliyinə nail olmaqdır. Ekspertin sözlərinə görə, belə bir niyyət Moskvanı narahat etməyə bilməz: "Rus mediasında Türkiyənin uzun müddət Moskvanın çətiri altında olan türk respublikaları ilə yaxınlığı qabardılır və təhlükəli fakt kimi müzakirə olunur. Rus ekspertlər "Ərdoğan Turan qurur" deyərək öz təşvişlərini gizlətmirlər. Qazaxıstanın "Bayraktar TB2" almaq niyyəti də Kremli narahat edən məqamlardandır. Rus mediasında panikaya səbəb olan başlıca amil isə "Bir millət, beş dövlət" şüarının aktuallaşmasıdır. Türkiyənin sadəcə türk ölkələri ilə deyil, Ukrayna və Gürcüstanla hərbi müqavilələri də Rusiyanın kefini pozur. Məhz ötən gün Hadrutda baş verən növbəti təxribat Rusiyanın Türkiyəyə mesajı, daha doğrusu, cavabı idi. Türkiyənin milyard dollarlıq layihələrinə Rusiya sadəcə 3-4 quldurun təxribatı ilə reaksiya verir. Əslində bu məqamın özü şimal qonşumuzun zəifliyinin göstəricisidir. O boyda dövlət erməni terrorçularının ümidinə qalıb".

Ə.Məmmədli vurğulayıb ki, Ankaranın türk dünyası ilə bağlı istənilən addımına Rusiya Qarabağda təxribatla cavab verəcək: "Ona görə də məsələyə birdəfəlik son qoymaq lazımdır. Türkiyə hərbçiləri yubanmadan Qarabağın dağlıq hissəsinə, Xankəndinə yerləşdirilməlidir. Sonrakı rus təxribatlarının qarşısını da elə qardaş ölkənin silahlı qüvvələri almalıdır. Rusiya bundan sonra öz provokasiyalarından əl çəkəcək. Əks halda bu cür əsəb oyunları ilə hələ çox rastlaşacağıq".

İsmayıl Qocayev

Trend-in baş redaktoru komadan ayılıb

Rufiz Hafizoğlunun ümumi vəziyyəti stabil ağırdır

Trend İnformasiya Agentliyinin baş redaktoru Rufiz Hafizoğlunun ümumi vəziyyəti stabil ağırdır.

Bunu Trend-ə baş redaktorun yerləşdirdiyi klinikanın müalicə həkimi bildirib.

Bildirilib ki, Rufiz Hafizoğlunun hazırda təzyiq və hərarəti normaldır: "Bu gün gözlərini açıb, komadan ayılıb. Saturasiyası 94 faizdir, bunun 35 faizi süni tənəffüs aparatı ilə verilir. Ümumi vəziyyət stabil ağır olaraq qalır. Müalicəsi intensiv davam etdirilir".

Xatırladaq ki, R. Hafizoğlu bir müddət əvvəl koronavirusa yoluxub. Vəziyyəti ağırlaşan baş redaktor "Yeni Klinika"ya yerləşdirilib.

Ad günü məclisi keçirən məktəb direktoru işdən çıxarıldı

Bakıda karantin qaydalarını pozaraq özünə ad günü keçirən məktəb direktoru vəzifəsindən azad edilib.

Bu barədə Təhsil Nazirliyinin mətbuat xidmətinin rəhbəri Cəsarət Valehov bildirib. Qeyd olunub ki, direktorun əmək müqaviləsinə bu gündən xitam verilib:

"Təhsil nazirinin müvafiq əmri ilə Bakı şəhəri 187 nömrəli tam orta məktəbin direktoru Nailə Məmmədova ilə bağlanmış əmək müqaviləsinə 28 dekabrdan xitam verilib".

Ermənistan daha iki hərbi əsiri Azərbaycana qaytarıb

Azərbaycan da dörd erməni hərbi əsiri Ermənistana təhvil verib

Ermənistan daha iki azərbaycanlı hərbi əsiri Azərbaycana qaytarıb.

Bu barədə Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşdirilən Rusiya sülhməramlı qüvvələrinin komandanı general-leytenant Rüstəm Muradov jurnalistlərə açıqlamasında bildirib.

Bundan əvvəl isə Azərbaycan daha dörd erməni hərbi əsiri Rusiya və Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə Ermənistana qaytarıb.

Ermənistan Baş nazirinin müavini Tiqran Avinyan bildirib ki, əsirlərin geri qaytarılması ilə bağlı artıq onların qohumlarına məlumat verilib.

"Onlar hazırda həkim nəzarəti altındadır və lazımi tibbi və psixoloji yardım alacaqlar", - deyə o qeyd edib.

Baş nazirin müavini vurğulayıb ki, hərbi əsirlərin mübadiləsi prosesi davam edəcək.

Xatırladaq ki, əsir və girovların qarşılıqlı mübadiləsi əsasında dekabrın 14-də Ermənistana 44 hərbi əsir qaytarılıb.

"...Müharibənin yenidən başlanması mümkündür"

Əhəd Məmmədli: "Rus sülhməramlılarına başa salmaq lazımdır ki, məsələ ciddidir"

Türkiyənin NTV kanalının məlumatına görə, briqada generalının komandanlığı altında Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçuları Azərbaycana yola düşüblər.

Bildirilib ki, yanvar ayından etibarən türkiyəli hərbçilər rusiyalı hərbçilərlə bərabər Dağlıq Qarabağda atəşkəsə nəzarət məqsədilə yaradılan Birgə Monitorinq Mərkəzində xidmətə başlayacaqlar.

Xatırladaq ki, Dağlıq Qarabağda atəşkəsə nəzarət etmək məqsədilə Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin yaradılmasına dair memorandum Rusiyanın müdafiə naziri Sergey Şoyqu ilə Türkiyənin Milli müdafiə naziri Hulusi Akar arasında onlayn formatda keçirilən görüşdən sonra imzalanıb.

Yəni türk qardaşlarımız sayılı günlər sonra Qarabağda olacaq.

Bu isə o deməkdir ki, düşmən təxribata əl atmazdan əvvəl iki dəfə düşünməli olacaq. Başqa sözlə desək, qardaş ölkə hərbçilərinin bölgədə olması düşməni müəyyən qədər təxribatlardan çəkindirəcək.

"İkinci Qarabağ müharibəsində də belə olmuşdu - biz davamlı təhriklərə cavab vermişdik"

AĞ Partiya sədrinin müavini, politoloq Əhəd Məmmədli isə "Şərq"ə açıqlamasında deyib ki, bu məsələni birdəfəlik həll etməyəcək: "Əlbəttə, türk hərbçiləri qarşı tərəfin "əl-qolunu" xeyli dərəcədə bağlayacaq. Amma təxribatların davam edəcəyi istisna deyil. Ona görə də Rusiya tərəfinə ciddi xəbərdarlıq edilməlidir. Biz məsələnin nə qədər ciddi xarakter daşıdığını digər tərəflərə, o cümlədən sülhməramlılara başa salmalıyıq.

Əks halda müharibənin yenidən başlanması mümkündür. Bildiyiniz kimi, İkinci Qarabağ müharibəsində də belə olmuşdu - biz davamlı təhriklərə cavab vermişdik. Əslində bu, bizə sərf edir. Belə demək mümkünsə, fürsətdir.

Ona görə də operativ davranmalı və dəmir yumruğumuzun gücünü növbəti dəfə hiss etdirməliyik".

Kənan Novruzov

Qazimizi Allah qoruyub

O indi palçıqdan tikilmiş bir göz otaqlı evdə yaşayır

“Ola bilsin, ayaq kəsilməyəcək. Əməliyyatın nəticəsindən asılı olacaq...”

Hərbi Hospitalda yatan və təsəvvür edin, ayağını itirib-itirməyəcəyini hələ də dəqiq bilməyən əsgər ”döyüşməliydik, döyüşdük. Torpağımızı azad etdik. Yaradı da, sağalar...” deyir. Heç kimdən, heç nə də ummur. Heç bir narazılığının olmadığını söyləyir. Belə əsgərlərimiz hesabına alınan torpaq müqəddəs adlanmazmı? Belə oğullar hesabına torpaq Vətənə dönür.

Tovuz rayonunun Bayramlı kəndindəndi yaralı əsgərimiz, 19 yaşlı Məmmədov Elnur. 2020-ci il yanvarın 7-də həqiqi hərbi xidmətə çağırılıb. Hərbi xidməti Füzuli istiqamətində çəkirmiş. 27 sentyabrda başlanan Vətən savaşına Füzulidən başlayıb. 44 günlük müharibənin 45-ci günü - noyabrın 10-u səhər saatlarında Xocavənddə ermənilərlə üzbəüz döyüşdə yaralanıb. Dünən əsgərimizlə telefon əlaqəsi yaratdıq. Yaralanmağı barədə özü danışdı:

- Xocavəndə daxil olurduq, əsgər yoldaşım ayağından yaralandı, ona kömək etmək istəyirdim, yarasını bağlayırdım, yaxınımızda mərmi partladı. Sağ ayağım pəncə və daban hissədən mərmi yarası aldı. Ardınca da sol buduma güllə dəydi. Güllə sol buduma dəyib sümüyü qırıb çıxmışdı, sağ ayağıma da dəymişdi. Əvvəlcə Füzulidəki hospitala apardılar. Orda birinci dəfə əməliyyat olundum. Sonra Gəncəyə göndərdilər. Sonra da Bakıya, əvvəlcə Travmatologiya Xəstəxanasına, sonra da Hərbi Hospitala yerləşdirdilər. Sol buduma dəmir korset taxılıb. Hissiyyat yoxdu. Həkimlər deyir, əməliyyat olunmalıdır. Ola bilsin, ayaq kəsilməyəcək. Əməliyyatın nəticəsindən asılı olacaq...

Elnur hospitalda xidmətdən razılıq etdi. Həkimlərə təşəkkür etdi:

- Həkimlərimiz sağ olsun, əsgərlərə necə lazımdı xidmət edirlər. Əllərindən gələni edirlər ki, yaralı əsgərlərimiz tez sağalsın. Yaralı əsgər nə arzulaya bilər? Ancaq evə dönmək... Allah şəhidlərimizə rəhmət eləsin, yaralılarımız da tez sağalsınlar.

Elnur bütün əsgərlərimiz kimi dəyanətlidir. Dözümlüdür. Canını Vətənə fəda etməyə zatən hazır idi. Şəhid olmadı, qalib ordunun qazisi oldu. Amma Elnurun söyləmədikləri də var. Tovuzun Bayramlı kəndində Elnurun ailəsini tanıyanlardan öyrəndik ki, əsgər ailəsi sıxıntı içində yaşayır. Kənddə onları tanıyanların sayəsində Elnurun anası Laləzər xanımla əlaqə saxladıq. Laləzər xanım ehtiyaclarını dilə gətirmək istəməsə də, ”eşitmişik, eviniz yararsız haldadı” sözündən sonra çəkinə-çəkinə, ”bəli, palçıqdan bir göz otaqlı evdi. Çox pis vəziyyətdədi”, dedi. Ailənin heç bir yerdən gəliri yoxdur. Elnurun atası da, anası da işsizdir. Rayon icra hakimiyyətindən indiyədək onlarla maraqlanan olmayıb. Kənd soveti yararsız halda olan evin fotosunu çəkib, icra hakimiyyətinə bildirəcəyinə vəd verib. Hələ də icra hakimiyyətindən səs-soraq yoxdur. Vətən üçün canını sipər edənlərə xüsusi diqqət olmalıdır. Cənab Prezident məhz bu mövqeyi gözləyir hər birimizdən.

Məlahət Rzayeva

Xocavənddə şəhid olan əsgərimiz iki medal ilə təltif edilmişdi

Ötən gün Azərbaycanın Xocavənd rayonunun Ağdam (Akaku) kəndi istiqamətində qanunsuz erməni silahlı qrupu və ya ərazidə qalmış Ermənistan silahlı qüvvələrinin qalıqlarından ibarət 6 nəfərlik dəstə Azərbaycan Ordusunun bölmələrinə hücum edib.

Trend-in məlumatına görə, nəticədə bir nəfər hərbi qulluqçumuz, əsgər Qənbərov Elmir Rayil oğlu şəhid olub, əsgər Əliyev Emin Süleyman oğlu isə yaralanıb.

Erməni təxribatı nəticəsində şəhid olan 1982-ci il təvəllüdlü Qənbərov Elmir Rayil oğlu bir neçə gün öncə Füzuli və Cəbrayılın işğaldan azad olunmasına görə medalı ilə təltif edilib.

Yoluxanların sayı 800-dən aşağı düşdü

3048 nəfər müalicə olunaraq sağalıb

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 772 yeni yoluxma faktı qeydə alınıb, 3048 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

”Şərq” xəbər verir ki, Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 39 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 215 483 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 172 019 nəfər müalicə olunaraq sağalıb, 2 538 nəfər vəfat edib, aktiv xəstə sayı 40 926 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 9 502, ötən müddət ərzində isə ümumilikdə 2 163 064 test aparılıb.

Ağdamda itkin düşən 24 yaşlı qadın axtarılır



9 ay əvvəl İtkin düşən 24 yaşlı Ağdam sakini axtarılır.

Daxili İşlər Nazirliyindən ”Şərq”ə verilən məlumata görə, Ağdam rayonunun İmamqulubəyli qəsəbəsində yaşayan 24 yaşlı Nərgiz Nəcəfova 2020-ci ilin mart ayında yaşadığı evdən çıxaraq bir daha geri qayıtmayıb.

Şəkildə gördüyünüz şəxsi tanıyanlardan və ya barəsində məlumatı olanlardan DİN-in ”102” Zəng Mərkəzinə və ya Ağdam Rayon Polis Şöbəsinə (0-2632-5-02-02) telefon nömrəsinə zəng vuraraq məlumat vermələri xahiş olunur.

Salyanda ata qızını qətlə yetirdikdən sonra intihar edib

Salyanda ata qızını qətlə yetirdikdən sonra intihar edib.

APA-nın Mil-Muğan bürosunun məlumatına görə, hadisə bu gün Salyan rayonunun Babazənan yaşayış massivində baş verib. Babazənan sakini, 1968-ci il təvəllüdlü Məzahim Qurbanov ailə münaqişəsi zəminində odlu silahla 25 yaşlı qızı Rəvanə Qurbanovanı qətlə yetirib. Daha sonra M.Qurbanov özünü də odlu silahla öldürüb. Hadisənin təfərrüatları araşdırılır.

Faktla bağlı Slayan rayon prokurorluğunda cinayət işi başlanıb, araşdırma aparılır.

“Şuşaya təxminən 25 nəfərlik heyətlə daxil olduq”

Füzulidən Şuşayadək döyüşən qazi: “...Cəmi 4-5 adam sağ qaldı”

Müharibə həm də ona görə ədalətsizdir ki, kimin taleyinin necə olacağı bilinmir. Bəzisi şəhid olur, bəzisi də ən ekstremal şəraitə rəğmən, həyatda qalmağı bacarır. Amma şübhəsiz, hər ikisi qəhrəmandır. Biz bunu 44 gün davam edən İkinci Qarabağ savaşında da gördük. Yüzlərcə igidimiz şəhid, bir o qədəri isə qazi oldu.



“Daşaltında travma aldım, huşumu itirdim. Ona görə də yaşadıqlarımızın çoxunu xatırlaya bilmirəm. Bundan sonra tərxis olundum”

Belələrindən biri də 1987-ci il təvəllüdlü Taleh Aşurovdur. Taleh orta məktəbi bitirdikdən sonra - 2005-ci ildə hərbi xidmətdə olub. Və elə oradaykən çavuşluq kursu keçib. İki ildən sonra tərxis edilir. Sentyabrın 27-dən başlayan Vətən müharibəsinə könüllü yollanır.

Bundan sonrasını isə onun ”Şərq”ə açıqlamasından oxuyaq:

“Füzuli istiqamətindəki döyüşlərdə iştirak edirdik. Kəşfiyyatçı olduğuma görə əsas vəzifəm düşmən postlarının yerini müəyyənləşdirmək idi. Çox ağır əməliyyatlarımız olub. Füzulidə qəlpə yarası alandan sonra məni mərkəzi rayon xəstəxanasına apardılar. Bir neçə gün müalicə aldım. Ardınca N saylı hərbi hissənin ikinci taborunda vəzifəmi davam etdirdim. Füzulidə Beton sədd adlanan yerdə dörd gün mühasirədə qaldıq. Sonra bizi təxliyə etdilər. Şuşayadək getdik. Daşaltında travma aldım, huşumu itirdim. Ona görə də yaşadıqlarımızın çoxunu xatırlaya bilmirəm. Bundan sonra tərxis olundum. Onu da deyim ki, dostlarımızın çoxu şəhadətə qovuşdu. Şuşaya təxminən 25 nəfərlik şəxsi heyətlə girmişdik. Taborumuzdan cəmi 4-5 adam sağ qaldı. Görünür, Allah məni övladlarıma bağışladı. Fəqət ehtiyac olan an yenə vətənimizi müdafiə etməyə hazıram”.

Kənan Novruzov

Məğlubiyyət ermənistanda böhranı dərinləşdirib

Müharibədən sonra çətin günlər keçirən Ermənistanda dərin böhran yaşanır. Vəziyyət o həddə çatıb ki, insanlar çörək belə ala bilmirlər. Bu səbəbdən də xaricdə yaşayan ermənilər İrəvana gələrək əhaliyə az da olsa, yardım etməyə çalışırlar. Bu barədə Almaniyada yaşayan, hazırda isə İrəvanda olan Vaqram Moqanesyan bildirib. O, vəziyyətdən yalnız dövlət çevrilişi ilə çıxa biləcəklərini qeyd edib.

"Müxalifətdə də ölkəni idarə edə biləcək şəxs olmadığı üçün böhran bir müddət davam edəcək"

Bundan başqa qeyd edək ki, Ermənistan hökuməti müqavilə əsasında xidmət edən hərbçilərinə onların gözlədiklərinin əksinə maaşlarını yarıbayarı ödəyib.

Bu barədə "Caliber" layihəsinin "Youtube" hesabında "Ermənistanda fərarilər üsyan edir, Xocavənd istiqamətində sahibsiz itlər zərərsizləşdirildi" başlıqlı videosunda qeyd olunub. Erməni hərbçilər söz verilmiş 250 min dram (520 dollar) əvəzinə, bu pulun yarısını əldə edə biliblər. Üstəlik burada söhbət sadəcə onların maaşlarından gedir, müharibə və ön xətdə xidmətlə bağlı nəzərdə tutulmuş əlavə ödənişlər isə heç hesaba belə alınmayıb.

İcevandan olan müqavilə əsasında xidmət edən hərbçilər maaşlarını əlavələrlə alacaqlarını gözləsələr də, erməni hökuməti onları yanıldıb.

İrəvandakı acınacaqlı durumu "Şərq"ə şərh edən beynəlxalq məsələlər üzrə mütəxəssis Sultan Zahidov bildirib ki, Ermənistanda müharibədən öncə də sosial-iqtisadi vəziyyət pandemiyaya görə günü-gündən gərginləşirdi. Ölkə idarəçiliyi bu məsələnin öhdəsindən gələ bilmirdi. Mütəxəssis qeyd edib ki, daha sonra ermənilərin İkinci Qarabağ müharibəsində aldıqları sarsıdıcı məğlubiyyət rəhbərliyin statusunu bir az da aşağı saldı: "Məhz bundan sonra müxalif partiyalar Paşinyana qarşı etiraz aksiyaları keçirməyə başladılar. Sözsüz ki, sosial-iqtisasi problemlər, pandemiya və müharibənin acı nəticələri fonunda daimi mitinqlər ölkədəki böhranı daha da dərinləşdirdi.

Hətta Ermənistanın baş nazirliyinə müxalifətdən olan Vazgen Manukyanın namizədliyi irəli sürüldü. Amma ona da ölkə daxilində kifayət qədər inam yoxdur.

Ermənistan əhalisinin bir qismi Paşinyanın getməsini istəyir. Təbii ki, burada əsas faktor müharibədəki məğlubiyyətdir. Amma digər tərəfdən Paşinyana alternativ olaraq ölkəni idarə edəcək bir şəxsin olmadığı üçün bu böhran daha da dərinləşir.

1988-ci ildə Qarabağ Komitəsi yaradılmışdı. Bu komitənin yaradılmasında məqsəd Qarabağı Azərbaycandan ayırmaq cəhdlərini həyata keçirmək idi. V.Manukyan bu komitəni yaradanlardan idi.

1992-1993-cü illərdə isə Ermənistanın müdafiə naziri olub. Bu şəxsin əlində Azərbaycan xalqının qanı var. Belə bir adamın hakimiyyətə gəlmək istəyi o deməkdir ki, Ermənistan çirkin səhvlərindən dərs götürməyib".

S.Zahidovun sözlərinə görə, Ermənistandakı ekspertlər deyir ki, köhnə düşüncəli şəxslər hakimiyyətə gəlməməlidir: "Məsələ burasındadır ki, müxalifətdə də ölkəni idarə edə biləcək şəxs olmadığı üçün böhran bir müddət davam edəcək. Əhali arasında sorğu keçirildi və hakimiyyətdə kimin olmasını soruşdular.

Hətta bir nəfər "yaxşı olar ki, başımızda erməni biri olmasın" dedi. Eyni zamanda ölkədəki erməni anaları fəryad edir, itkin düşmüş övladlarını istəyirlər. Bir sözlə, İrəvandakı vəziyyət olduqca kritikdir. İstənilən halda Nikol Paşinyan çıxış yolu üçün erkən növbədənkənar seçkilərin keçirilməsini istəyir. Bu seçkilərin yaxın zamanda olma ehtimalı böyükdür. Fikrimcə, seçkilər Ermənistanın taleyində aparıcı rol oynayacaq. Amma istənilən halda həm hakimiyyət, həm də müxalifət bilir ki, artıq İkinci Qarabağ müharibəsinin nəticələri təsbit olunub. Ermənistanda hakimiyyətə kim gəlirsə gəlsin, üçtərəfli bəyanatın siyasi nəticələri dəyişə bilməyəcək".

Yeganə Bayramova

Zamanında addım atmadıq

Novella Cəfəroğlu: "Beynəlxalq hüququ bilən mütəxəssislərdən ibarət heyət yaradılsın"

"Müraciətlərə baxıb-baxmamaları öz işləridir. Əsas odur ki, biz öz işimizi görək"

Azərbaycan Milli Məclisinin İnsan hüquqları komitəsinin İkinci Qarabağ müharibəsi dövründə Ermənistanın törətdiyi hərbi cinayətlərlə bağlı müraciətini Haaqada yerləşən Beynəlxalq Cinayət Məhkəməsinin Prokurorluq İdarəsi cavablandırıb.

Komitə 27 sentyabr tarixindən, dünya ölkələrinin parlamentlərinə, beynəlxalq təşkilatlara və beynəlxalq qeyri-hökumət təşkilatlarına Ermənistanın müharibə cinayətləri haqda dəfələrlə müraciət və bəyanatlar ünvanlayıb.

Bəyanatlarda Ermənistanın müharibə və insanlıq əleyhinə cinayətləri, Gəncə və Bərdədə mülki əhalinin ballistik raket hücumlarına məruz qalması göstərilib. Bundan başqa, mülki vətəndaşların həlak olması, çoxsaylı dinc əhalinin yaralanması, minlərlə evin dağıdılması və əmlaka ziyan vurulması barədə məlumatlar qeyd olunub.

Həmin təşkilatlar sırasında - Beynəlxalq Cinayət Məhkəməsi, BMT-nin İnsan Haqları Komitəsi, Avropa İnsan Hüquqları Məhkəməsi, Avropa Şurasının İnsan Hüquqları Komitəsi, Beynəlxalq Qırmızı Xaç Komitəsi və s. beynəlxalq insan hüquqları təşkilatları yer alıb.

Müraciətlərdə həmçinin, komitənin Azərbaycanda müvafiq strukturlarının, hüquq-mühafizə orqanlarının Ermənistanın hərbi cinayətləri ilə bağlı əldə etdiyi faktlar, sənədlər və sübutların Beynəlxalq Cinayət Məhkəməsinə təqdim ediləcəyi də ifadə olunub.

Bu barədə "Şərq"ə danışan hüquq müdafiəçisi Novella Cəfəroğlunun fikrincə, belə addımın atılması müstəsna əhəmiyyətlidir:

"Biz əslində illər öncə Birinci Qarabağ müharibəsi ilə bağlı da müvafiq yerlərə müraciət etməli idik. Həmin savaş erməni cinayətkarlığının ən bariz nümunəsidir. Nə qədər insanlarımız öldürülmüş, mülki obyektlərimiz dağıdılmışdı. Təəssüf ki, bizdən fərqli olaraq ermənilər ən adi məsələdə belə, haray-həşir salırlar. Məsələn, onlara heç bir aidiyyəti olmayan alban kilsəsinə dəymiş bircə gülləyə görə, az qala, dünyanı dağıdırdılar. Biz, heç olmasa, bundan sonra özümüzü müdafiə etməyi bacarmalıyıq. Beynəlxalq hüququ bilən mütəxəssislərdən ibarət heyət yaradılmalıdır. Həmin adamlar bütün Avropa məhkəmələrinə, o cümlədən də Haaqa Məhkəməsinə müraciətlər ünvanlamalıdırlar. Müraciətlərə baxıb-baxmamaları öz işləridir. Əsas odur ki, biz öz işimizi görək".

Kənan

"Ruslar ermənilərə Laçın dəhlizində imkan yaradır"

Məlum olduğu kimi, Azərbaycanın Xocavənd rayonunun Ağdam (Akaku) kəndi istiqamətində qanunsuz erməni silahlı qrupu və ya ərazidə qalmış Ermənistan silahlı qüvvələrinin qalıqlarından ibarət altı nəfərlik dəstə Azərbaycan Ordusunun bölmələrinə hücum edib. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

"Qarabağda on minə yaxın erməni diversant var, onların hamısı bölgədən təmizlənməlidir"

Nəticədə, bir nəfər hərbi qulluqçumuz, əsgər Qənbərov Elmir Rayil oğlu şəhid olub, əsgər Əliyev Emin Süleyman oğlu isə yaralanıb. İlkin tibbi yardım göstərildikdən sonra yaralı hərbi qulluqçumuz tibb müəssisəsinə təxliyyə edilib. Hazırda həyatı üçün heç bir təhlükə yoxdur.

Görülən tədbirlər nəticəsində qanunsuz erməni hərbi dəstəsinin altı üzvü məhv edilib.

Bildirilib ki, oxşar hal təkrarlanarsa, Azərbaycan Ordusu qəti tədbirlər görəcək.

Noyabrın 10-da imzalanan üçtərəfli bəyanatdan sonra təsəlli tapdıq ki, daha itkilərimiz olmayacaq, analar ağlamayacaq. Amma düşmən təxribatlarını davam etdirir. Elə isə hansı atəşkəsdən söhbət gedə bilər? Məgər sənədə qol çəkən ancaq biz idik?!



"Həmçinin türk hərbçilərinin bölgəyə gəlişi də sürətlənməlidir. Onlar Laçın dəhlizində, Xankəndi yolunda olmalıdırlar"

"Atlas" Araşdırmalar Mərkəzinin sədri, politoloq Elxan Şahinoğlu artıq sayını itirdiyimiz növbəti təxribata dair fikirlərini "Şərq"lə bölüşüb. O, rusların vəzifələrini icra etmədiyini söyləyib: "Mən hələ bəyanat imzalanarkən məsələnin tam bitmədiyini demişdim. Əksinə, problemlərin olacağına dair xəbərdarlıq etmişdim. Dediyim kimi də oldu. Zaman göstərdi ki, ruslar bölgəyə sülhü qorumaq məqsədilə gəlməyiblər. Onlar ermənilərə tərksilah etməli idilər. Lakin əksinə, təxribatlar törədildi. Saxta xəritənin hazırlanması, Araik Arutyunyanla səmimi foto çəkdirmək və sair buna bariz nümunədir. Qarabağ meşələrində erməni terrorçuların olduğu məlumdur. Bəs onların ərzaq, silah təminatı necə həyata keçirilir? Deməli, sülhməramlılar onlara yardım edirlər. Üstəlik, ruslar ermənilərin Laçın dəhlizindən istifadəsinə də imkan yaradırlar".

E.Şahinoğlunun fikrincə, biz işimizi sonadək davam etdirməliyik: "Anti-terror əməliyyatlarını dayandırmamalıyıq. Növbəti təxribat cəhdinə imkan yaratmaq, gözləmək olmaz! Niyə onların bizə arxadan zərbə vurmalarını gözləməliyik?! Bu, yolverilməzdir.

Tutduğumuz diversantları təhvil veririk ki, yenidən üzərimizə hücuma keçsinlər?! Belə olmaz. Ona görə dediyim kimi, Rusiyanın istəyib-istəməməsindən asılı olmayaraq, anti-terror əməliyyatlarına davam etməli və onlara da başa salmalıyıq ki, sizin bacarmadığınız işi biz yerinə yetiririk. Xankəndiyədək bütün meşələri "təmizləməliyik".

Qarabağda oranı kifayət qədər yaxşı tanıyan və silahlı on minə yaxın diversant yatır. Hamısını zərərsizləşdirməliyik. Elə etmək lazımdır ki, orada bir nəfər də terrorçu qalmasın. Sonuncu erməni tərk-silah olunanadək güzəştə getmək olmaz.

Öz işimizi özümüz görməliyik. Başqasından, xüsusilə də rus sülhməramlılarından nə isə gözləmək doğru deyil. Həmçinin türk hərbçilərinin bölgəyə gəlişi də sürətlənməlidir. Onlar Laçın dəhlizində, Xankəndi yolunda olmalıdırlar".

Kənan Novruzov

Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

Müharibə bitib, informasiya savaşı isə davam edir

Daha güclü olmaq və haqq səsimizi dünyaya çatdırmaq üçün xarici mətbuatla əlaqələrimizi gücləndirməliyik

Müasir silahlı konfliktlərdə informasiya sahəsində qarşıdurma döyüş bölgəsindəki qədər vacibdir. 2020-ci il sentyabrın 27-dən başlayaraq, Ermənistan silahlı qüvvələrinin hücumu nəticəsində tərəflər arasında irimiqyaslı hərbi əməliyyatlar yenidən alovlandı. Beləliklə, 28 il müddətdə ATƏT-in Minsk qrupu çərçivəsində həllini tapmayan Dağlıq Qarabağ konflikti XXI əsrdə ikinci fazasına qədəm qoydu.

Münaqişə başlayan gündən dünyanın bütün kütləvi informasiya vasitələri konfliktlə bağlı çoxlu sayda yazılar verdi. Hətta dünyanın ən böyük transmilli media orqanları, rəsmi informasiya agentlikləri və qeyri-rəsmi kanalları 44 gün ərzində demək olar ki, hər gün münaqişə ilə bağlı xəbərlərə yer ayırdı. Amma 44 günlük Dağlıq Qarabağ müharibəsinin mediada işıqlandırılmasının təhlili onu göstərdi ki, bir çox xarici media orqanlarında erməni əsilli jurnalistlər çoxluq təşkil edir və onların müəllifi olduğu yazılarda münaqişəyə qərəzli yanaşmalar açıq şəkildə hiss olunur. Həmçinin inkişaf etmiş ölkələrdə erməni lobbisinin KİV-ə təsiri də çox güclüdür.

Bildiyimiz kimi, 44 günlük müharibə dövründə Qərb mediasının xəbər portallarında qeyri-obyektivliyinə çox rast gəlinirdi. BBC müharibə dövründə hətta onun Azərbaycan nümayəndəliyi sözügedən müharibə və onun həqiqətlərini yayarkən jurnalistikanın prinsiplərinə əməl etməyərək birtərəfli mövqeyini açıq-aydın şəkildə nümayiş etdirdi. Belə ki, onlar Dağlıq Qarabağı mübahisəli və ermənilərin çoxluq təşkil etdikləri anklav kimi təqdim etdilər. Hətta onlar dəfələrlə yanlış olaraq, guya, Qarabağ müharibəsinə aid olan videoları "Facebook", "Twitter", "YouTube", "TikTok" şəbəkələrində götürərək feyk xəbərlər yayımladılar. Lakin Hindistan kanallarının birində göstərilən Azərbaycan təyyarəsinin vurulması videosunun 2020-ci ilin avqustunda Yaponiyanın "YouTube" kanalında yayımlandığı sübut etdi. Noyabrın 8-də BBC saytında "Azərbaycan üçün tarixi əhəmiyyət daşıyan Şuşa şəhərinin işğaldan azad olunması" ilə bağlı məqalə dərc etdi. Yazıda Şuşada 1980-1990-cı illərdə daha çox azərbaycanlıların yaşaması, müharibə nəticəsində yüz minlərlə insanın qaçqın düşməsi ilə bağlı həqiqətlər nəhayət ki, yer aldı.

Avropa multimedia xəbər portalı "Euroreporter" də Qərb mediasının Qarabağ konflikti ilə bağlı məqalə yayımlamışdı. Araşdırmanın müəllifi Filip Jyen yazının girişində Qərb mətbuatının müasir dövrdə balanslı və obyektiv olmamasının sual doğurmasını qeyd etmişdi. Müəllif məqalədə Ermənistanın silahlı qüvvələrinin təcavüzkar hərəkətlərinə, dinc azərbaycanlıların Gəncə, Tərtər və Bərdədə öldürülməsinə dünya mediasının biganə qalmasını da vurğulamışdı.

Münaqişənin təsvirində ən radikal mövqeni isə "Reuters" informasiya agentliyi tutdu. Agentlik xəbərlərində Dağlıq Qarabağı Azərbaycandan ayrı tərəf kimi təqdim edirdi. Məsələn, 14 oktyabrda "Azərbaycan prezidenti Azərbaycanın Dağlıq Qarabağdakı hərbi əməliyyatları davam etdirdiyini söylədi", "Ermənistanın Baş naziri Paşinyan deyir ki, Azərbaycanın bütün Dağlıq Qarabağı işğal etmək fikri var" başlıqlı xəbərlər buna sübutdur. Vurğulamaq gərəkdir ki, sözügedən yazıların həmmüəllifləri Mariya Kiselyova, Nvard Ohannisyanın, Tom Balmforthdur, Alexander Marrow, Margarita Antidze, Alex Richardsondur.

Dünyanın ən böyük transmilli orqanlarından biri olan "The New York Times" qəzetində isə Dağlıq Qarabağla bağlı yazıların əksəriyyətinin müəllifi xarici ölkələr, əsasən də Rusiya üzrə müxbir olan Pulitser mükafatlı Andrew Kramer idi. Müharibənin ilk günündə yayımlanan "Ermənistanla Azərbaycan arasındakı mübarizə daha böyük güclərin cəlb olunması riski ilə bağlıdır" adlı geniş araşdırma yazısında hər iki tərəfin mövqeyi bildirilməklə, bir çox digər məqamlar açıqlanmaqla müəyyən qədər obyektiv yanaşma ortaya qoymuşdur. Müharibə bölgəsinə gedən "New York Times" jurnalisti Anton Troyanovski də Qarabağ konflikti ilə əlaqədar bir neçə araşdırma yazılar hazırlamışdır. "Ermənistan ilə Azərbaycan arasında atəşkəsdən sonra qısa müddətdə işləri" başlıqlı yazıda Moskvada imzalanmış atəşkəs danışıqlarından sonra Azərbaycanın artilleriya, pilotsuz uçuş aparatı, səngər mübarizəsi ilə ilk hücuma başlaması haqqında məlumatlara yer verilmişdir. Daha çox anklav adlandırılan Qarabağın Xankəndi şəhərinin atəşə tutulması, sivillərin həlak olması, Qarabağın beynəlxalq konvensiyalara görə Azərbaycanın ərazisi olması, ancaq torpaqların geri qaytarılmasından sonra etnik ermənilərin məhv olacağı məsələləri ilə bağlı fikirlər burada öz əksini tapmışdır. Eyni zamanda məqalədə cəbhə xəttinə yaxın rayonların, Tərtərin, Bərdənin atəşə tutulması, Azərbaycanın Xarici işlər Naziri Ceyhun Bayramovun və Beynəlxalq Krizis qrupunun təhlilçisi Zaur Şiriyevin fikirləri də qeyd edilmişdir. Həmin müəllifin oktyabrın 13-də yayımlanan "Dağlıq Qarabağın duel tərəfləri üçün birgə yaşamaq mümkün deyil" adlı araşdırma yazısında əsasən erməni vətəndaşlardan müsahibələr alınsa da, obyektiv məqamlara da toxunulmuşdur. Belə ki, konfliktin tarixinə nəzər salınmış, haqlı olaraq milyonlarla azərbaycanlının Ermənistandan və Dağlıq Qarabağdan qaçqın düşmələri və Azərbaycan üçün bu məsələ milli faciə olduğundan, geri qaytarılması söhbətinin olmayacağı qeyd edilmişdir. "New York Times" qəzetinin müharibə zonasına ezam olunmuş müxbiri Carlotta Gall isə müharibə gündəliyini Azərbaycan tərəfdən tutmuşdur. Müəllif "Azərbaycanda bir sıra partlayışlar, qışqırıqlar və ardınca qan" başlıqlı reportajda Bərdəyə atılan qadağan olunmuş artilleriya raketləri nəticəsində 21 nəfərin ölümü, 70 nəfərin yaralanması haqqında məlumat vermiş, dəhşət içində olan zərərçəkmiş insanlardan geniş müsahibələr almışdır.

Qətər Əmirliyinə məxsus beynəlxalq telekompaniya - "Al-Jazeera"da məsələyə obyektiv yanaşmalar çox oldu. Azərbaycan Respublikasında olan Sinem Köseoğlu və Ermənistanda olan xüsusi müxbir Bernard Smith bir reportajda öz çəkdikləri sujetləri təqdim etdilər. Reportajlarda təqdim edilən yanlışlardan biri məhz Qarabağın mübahisəli ərazi olması, etnik baxımdan orada ermənilərin üstün olmasıdır. Bununla yanaşı, Bernard Smith və Sinem Köseoğlu ümumi xarakterli məsələlərə toxundluar. Tanınmış media orqanlarında uzun müddət çalışan Mansur Mirovalev telekanalın saytında təqdim etdiyi "Dağlıq Qarabağ konfliktində Rusiyanın oynadığı rol nədir" adlı yazısında tarixə ekskurs etmiş, Rusiyanın məqsədini və rolunu araşdırmışdır.

Müəllif haqlı olaraq hər iki tərəfdən olan siyasi təhlilçilərin (Emil Mustafayev və Boris Navasardyan) və digər beynəlxalq təşkilatlarda çalışan politoloqların fikrini alıb, eyni zamanda Türkiyənin də bölgədəki mövqeyini anlatmağa çalışıb.

Dünya gündəmini müəyyən edən ABŞ-ın nəhəng CNN informasiya kanalı da 44 günlük Qarabağ müharibəsinə çox geniş yer ayırdı. Kanal "Ermənistanla Azərbaycan arasında mübahisəli bölgəyə görə qarşıdurmalar başlayır", "Ermənistan və Azərbaycan mübahisəli bir bölgə üstündə toqquşur. Bilməli olduğunuz şey budur" araşdırmalarında konfliktlə bağlı hər iki tərəfin mövqeyini ortaya qoymuş, ancaq Qarabağı mübahisəli ərazi kimi təqdim edərək "Artsax" adlandırmışdır.

"İslahatçı Gənclər" İctimai Birliyinin sədri Fərid Şahbazlı "Şərq"ə açıqlamasında vurğulayıb ki, Vətən müharibəsi dönəmində bir çox xarici KİV-lər erməni lobbisinin təsir dairəsində idilər. Bu məqsədlə də onlar Azərbaycana qarşı qara piar həyata keçirirdilər: "Bildiyimiz kimi, bir çox xarici media faktları təhrif etməklə, dünyanın ictimai rəyini dəfələrlə çaşdırmağa çalışdılar. Dünyanın bir çox ölkəsində erməni lobbisi təsiri nəticəsində təəssüflə qeyd etməliyik ki, kütləvi informasiya vasitələri onlara xidmət edir. Amma bu müharibə dövründə bütün bunlara baxmayaraq, ötən illərlə müqayisədə Azərbaycan ictimaiyyəti əvvəlki dövrlərə baxanda daha aktivlik nümayiş etdirdi. Sevindirici haldır ki, xüsusilə gənclərimiz xarici KİV-lərlə yaxşı əməkdaşlıq qurdular və Azərbaycanın haqlı davasını müdafiə edən məqalələr dərc etdirdilər. Ümumiyyətlə, qeyd etmək istəyirəm ki, bu proseslərdə cəbhə xəttində olduğu kimi informasiya müharibəsindəki blokadanı Cənab Prezident İlham Əliyev özü dağıtdı. Dünyanın böyük mediaları Azərbaycana qarşı qara piar kampaniyasına başlasalar da, Prezidentin müsahibələrindən sonra Azərbaycana qarşı olan bəzi KİV-lər neytral qalmağa çalışdılar".

F.Şahbazlı əlavə edib ki, əlbəttə ki, gənclər də prezidentin bu çıxışlarını yol xəritəsi kimi istifadə etdilər və onlar sosial şəbəkələrdə çox aktiv rol aldılar: "Baxmayaraq ki, siyasi proseslərin daha çox müzakirə olunduğu "Twitter" seqmentində bizim gənclərimiz təzə idilər. Düzdür, illərdir ki, bizim gənclər "Facebook"da aktiv olsalar da, Cənab Prezidentin çıxışları sayəsində gənclərimiz orada qısa müddətdə həqiqətən də böyük uğur əldə elədilər. Sosial platformalar da azərbaycanlılar və ermənilər üçün mübarizə meydanına çevrilmişdi. Bir həftə ərzində 20 milyon dəfə #WeWillWin, #DontBelieveArmenia və #StopAzerbaijanAggression həştəqlərindən istifadə olunmuşdur. Bu həştəqlər dünya gündəminə düşdü. Bir çox ölkələrin tanınmış siyasətçiləri, bəzi hallarda bilmədiklərindən təhrif olunmuş münaqişəli məqalələr yazırdılar. Belə demək mümkündürsə, gənclərimiz bir çox tanınmış şəxslərin əsl həqiqəti bilməsini təmin etdi. Təbii ki, bəzi hallarda gənclərimiz sayəsində onların yazılarında düzəliş etmələrinin də şahidi olduq. Hesab edirəm ki, informasiya müharibəsində gənclərimiz güclü çıxdı. Amma əlbəttə bu, yetərli deyil. Bilirsiniz ki, düşmənin nə cəbhədə, nə də informasiya savaşında təxribatları bitmir. Düşmən müxtəlif platformalarda Azərbaycanın qələbəsini həzm edə bilmədiyi üçün qara-yaxma kampaniyası aparır. Belə şəraitdə bizim üzərimizə böyük iş düşür. Biz bundan sonra xarici KİV-lərlə əlaqələri genişləndirməli, o cümlədən xarici mətbuatdakı jurnalist dostlarımızın sayını artırmalıyıq və onlarla yaxından əməkdaşlıq qurulmalıdır. Onlar Azərbaycana səfər olunmalıdırlar. Burada da şübhəsiz ki, ictimai təşkilatların jurnalistlərinin üzərinə böyük məsuliyyət düşür, eyni zamanda bu təşəbbüsləri dəstəkləməlidir. Sosial şəbəkələrdə aktiv peşəkar istifadə zərurət halına gəlməlidir, daha akademik yanaşma tələb olunmalıdır. Artıq biz orada müasir alətlərdən istifadə edərək geniş şəkildə faydalanmalıyıq. Bilirsiniz ki, dünya informasiya müharibəsi əsridir. Bu gün müasir dünya müharibələri yalnız cəbhədə deyil, eyni zamanda informasiya müstəvisi zəminində də gedir. Ona görə də xarici KİV-lərlə geniş şəkildə əməkdaşlıq qurulmalıdır. Çünki qarşıda bizi böyük mərhələ gözləyir. Gənclərimiz də bu mərhələyə uyğun tam hazırlaşmalıdırlar".

Aynurə Pənahqızı

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap olunub

Peyvəndlənmə prosesi bazara birbaşa təsir edəcək

2023-cü ilədək neftin qiyməti 50 dollar ətrafında olacaq

"Neftin qiyməti düz 20 gün bundan öncə - dekabrda 50+ dəhlizində olub. Neftin qiymətinin 50-dən yuxarı qalxmasına səbəb iki faktor əsas rol oynayır. Birincisi, OPEC-in atdığı addım, ikincisi, COVİD-19 pandemiyası ilə əlaqədar olaraq peyvəndlərin tətbiqinin başlanmasıdır.

İstər Avropada, istərsə də Amerikada bu peyvəndlər dekabr ayında həddən artıq qızışdırıcı meylə malik idi. Və bazar iştirakçılarında optimizm əhval-ruhiyyəsi yaradırdı ki, onların təsiri ilə artıq dünya bu bəladan yaxa qurtara biləcək və bunun nəticəsində gediş-gəliş artacaq. Hər şey əvvəlki məcrasına düşəcək və neftə tələbat da artacaq".

Bu fikirləri "Şərq"ə açıqlamasında Neft Araşdırmalar Fondunun rəhbəri İlham Şaban deyib. Ekspert əlavə edib ki, ancaq son günlər neftin qiyməti 52-dən gəlib, artıq 50-dən aşağı bir həddə düşdü: "Sadəcə bazara daxil olan bəzi neqativ və pozitiv informasiyanın bir-birinin üstələməsi ilə neftin qiymətində dəyişmələr oldu. Hələ ki, təlaş üçün hansısa bir əsas yoxdur. Bayden prezident olduqdan sonra neftin qiymətinin artacağı ilə bağlı fikirlər var. Qeyd edim ki, bu da çox müəmmalı və ancaq təxəyyülün doğurduğu məsələlərdəndir. Neftin dünyada stabil artımı üçün, tutaq ki, 55-ə çatması və onu qoruyub saxlaması üçün birinci növbədə tələb yaranmalıdır. Tələbə uyğun da təklif olmalıdır. Ondan başqa hansısa hadisələr baş verirsə, bu, qısamüddətli və daha doğrusu, bir neçə saatın içərisində yenidən öz məcrasına qayıdan məsələdir. Hələki yanvarın ortasına qədər koronavirusun təsirləri ilə bağlı Milad bayramı, Yeni il şənlikləri ilə bağlı kütləvi sərtləşdirilmiş karantin rejimi tətbiq edilir. Bu da istər gediş-gəlişi, istərsə də tələbatı azaldır. Başqa bir səbəb artıq burda klimatik faktor rolunu oynayacaq. Çünki bu həftədən başlamış Şimal yarımkürəsində normadan yüksək temperatur qeydə alınması baş verib. Əgər əvvəl çox soyuq hava kütlələrini biz müşahidə edirdiksə, özü də Amerikada yarım metr qar yağırdı, Avropanın şimal hissəsi həddən artıq çox soyuq olurdu. Hətta gedib Yaponiya, Cənubi Koreya kimi ölkələri də öz ağuşuna almışdı. Temperatur Cənubi Koreyada mənfi 20-yə düşmüşdü ki, bu da enerjiyə tələbatı artırırdı. Ancaq Bakıda havanın temperaturu 9 dərəcəyədək yüksəlib və heç bir külək yoxdur. Şimalda da vəziyyət bu cürdür. Neftə tələbatın azalması qısamüddətli olsa da bazarda əksini tapır".

İ.Şaban hesab edir ki, neftin qiymətinin 60-a qədər yüksəlməsi və onu keçməsi məsələsini yəqin ki, yaxın 6 ayda müşahidə edilməyəcək: " Nəyə görə? Onu da deyim ki, peyvəndlərlə bağlı əvvəllər nə qədər pozitiv informasiya yayılırdısa, indi bir o qədər neqativ məlumatlar yayılır. Məsələn, filankəsə vurdular, bu, əks reaksiya verdi və s. Əlbəttə ki, bütün bunlar çəkindirici faktor rolunda çıxış edir. Ancaq istənilən halda bundan artıq müsbətə doğru hərəkət olarsa, dünya üzrə də hərəkət artarsa, enerjiyə tələbat yaranarsa, nəyə görə neftin qiyməti 50-60 dəhlizinə çatmayacaq? Çünki OPEC-in dekabr ayının əvvəlində keçirdiyi görüşdə əldə edilən 24 ölkənin razılaşması ondan ibarətdir ki, hər ay bazarı monitorinq edib və hasilatın 500 min barel artırılmasıyla bağlı qərar verəcək. Əgər gediş-gəliş çoxalacaqsa, bunlar da artır. Yəni bir tərəfdən tələb yaranır, o biri tərəfdən təklifi artırırlar. Necə ki, 2015-2019-cu illərdə neftin orta qiyməti 54 dollar olub, artıq dünya son 5 illiyin orta qiyməti ətrafında köklənib. BP-nin özünün proqnozlarına baxsaq, onda 2023-cü ilədək neftin qiymətinin 50 dollar ətrafında satışı daha realdır".

Aynurə Pənahqızı

Tədqiqatçı millət vəkilini dəstəklədi

İşğaldan azad olunan bölgələrdə muzey yaratmaq olar

Amma əvvəlcə Şuşanın alınması ilə bağlı filmlər çəkilməlidir

Azərbaycanda hər bir rayonda şəhidlər muzeyi yaradılsın. Bu təkliflə deputat Tahir Kərimli parlamentin dünən keçirilən iclasında çıxış edib.

T.Kərimli bildirib ki, Azərbaycan 44 günlük Vətən müharibəsində böyük qələbə qazandı: "Biz bu qələbəni gələcək nəsillərə çatdırmaq üçün işlər görməliyik. Bunun üçün hər bir rayonda şəhidlər muzeyi yaradılmalıdır. Bizdə Şəhidlər Xiyabanı var. Bura gedəndə biz faciələri xatırlayırıq. Şəhidlər xiyabanlarını qalibiyyət, zəfər memorialına çevirməliyik".

Mövzuya münasibət bildirən tədqiqatçı-publisist Dilqəm Əhməd "Şərq"ə açıqlamasında şəhidlərin daim yaddaşda qalmaları üçün bir neçə cildlik kitabın tərtib olunmasını bildirib. D.Əhməd qeyd edib ki, ilk növbədə hər biri haqqında informasiya və fotoşəkillər verilməlidir: "Bu çox vacibdir. Çünki 44 günlük müharibə Azərbaycan xalqının əziklikdən xilasına, millət olmasına səbəb oldu. 30 ildir işğalda olan torpaqlarımızın böyük qismi geri alındı. Ona görə də əvvəla kitab olmalıdır".

Muzey məsələsinə gəlincə, Dilqəm Əhməd qeyd edib ki, işğaldan azad edilən rayonlarda həmin rayondan olan şəhidlərin əşyaları, gündəlikləri və s. nə varsa, bir araya toplayıb yaratmaq olar: "Məsələn, Azərbaycan Dillər Universitetində 20 Yanvar şəhidlərindən şair Ülvi Bünyadzadəyə aid belə bir muzey var. Yaxşı olardı ki, gələcəkdə bədii və sənədli filmlər də çəkilsin. Xüsusən, Şuşanın alınması ilə bağlı filmlər önəmlidir. Türkiyənin bu mövzularda necə maraqlı filmlər çəkdiklərini görürük. İstərdik ki, bizdə də belə filmlər olsun".

Aynurə Pənahqızı

Ermənistanın dirçəlməsi mümkün deyil

Rusiya da borclarla bu ölkəni özündən asılı vəziyyətə salıb

"Ermənistan ağır sosial - iqtisadi böhran içindədir. Səhiyyə, koronavirus, müharibədə itkilər, onların ailələri. Onlara pensiyalar lazımdır, psixoloji yardım göstərilməlidir".

Bu sözləri Ermənistan prezidenti Aram Sarkisyan deyib. O bildirib ki, cəbhədən qayıdan yaralılar, hərbçilərlə kim məşğul olacaq? Onlar hardan iş tapacaqlar? Biz təkcə dövlətin deyil, millətin böhranını yaşayırıq - səhiyyə, maliyyə, iqtisadi, psixoloji, humanitar və s. bütün sahələrdə böhrandır.

Mövzu ilə bağlı "Şərq"ə danışan iqtisadçı-ekspert Rauf Qarayev qeyd edib ki, Ermənistan bir toplum olaraq yalnız rusların hesabına yaşayıb. O vurğulayıb ki, ruslar İrəvan xanlığında vaxtilə onları məskunlaşdırıb: "Sonra isə ruslar Azərbaycana təzyiq etməklə ermənilərin əlini qolunu açıb. Bugünki Ermənistan da rusların təzyiqi nəticəsində mövcuddur. Məqsəddə aydındır. Region dövlətlərə təzyiq etmək. Ermənistan ərazi iddia etməklə nə qazandı? Əslində baxsaq heç nə. Nə özü yaşadı, nə başqalarına imkan vermədi. Başqaları isə ondan imtina edərək öz iqtisadiyyatlarını möhkəmləndirdi. Ermənistanın güclünün yanında olması və güclünün hesabına nəsə qazanması əslində onların adekvat olmamağından, xəstə düşüncəyə sahib olmasından xəbər verir".

Ekspert əlavə edib ki, Ermənistan SSR-dən ayrılaraq, müstəqil ölkə kimi fəaliyyət göstərsə də, bu gün iqtisadiyyatı iflic günündədir: "Gəlin bu məsələyə daha geniş rakursdan baxaq. İqtisadiyyatın iflic gündə olmasının səbəbi təbii ki, ərazi iddiasıdır. Ermənistan Azərbaycanla neçə ildir müharibə şəraitindədir. Bu baxımdan da, onların iqtisadiyyatı da, durğun vəziyyətdədir. Qərb tərəfdən Azərbaycana görə Türkiyə sərhədi bağlayıb. Şimal tərəfdən Gürcüstana qarşı ərazi iddiası var. Yalnız cənub tərəfdən İranla əlaqə qura bilib. Bu isə onun iqtisadiyyatının dirçəlməyi üçün kifayət etmir. Rusiyanın isə Ermənistanda öz maraqları var. Məsələn, qazı ucuz verir əvəzində müəyyən və daha rentabelli şirkətlərini Ermənistandan alır. Silahı isə, pulsuz deyillər verilir. Buna tam inanmıram. Səbəb isə ortaya kredit məsələsi də çıxmasıdır. Rus heç vaxt, heç kəsə pulsuz nəsə vermir. Kredit məsələsi ilə o Ermənistanı özündən asılı vəziyyətə salıb. Həmçinin Ermənistan Azərbaycanla müharibə etməklə enerji tranzit gəlirindən məhrum oldu. Hansı ki, ildə Gürcüstan tranzit xəttindən ehtimallara görə 150 milyon dollar vəsait qazanırdı".

Ekspert qeyd edib ki, Ermənistanın indiyə qədər heç bir rəhbər ölkənin iqtisadiyyatını dirçəldə bilməyib: "Səbəb korrupsiya faktıdır. Rəhbərliyə gələn prezidentlər yalnız öz ciblərin və yaxınlarını düşünüblər. Nəticədə korrupsiya halı bütün ölkəni bürüyüb. Hər bir kiçik məmur belə yalnız rüşvət yığmaq haqqında düşünüb. Təsadüfi deyil ki, Naxçıvana əsir düşən bir kəndli fermer adi bir kənd polisindən şikayətlənərək deyirdi ki, polis mənə deyir hər ay bu qədər vəsait verməsən, səni şərləyərək həbs etdirəcəyəm. Orduda kütləvi korrupsiya halları da, iqtisadiyyatın çökməsinə zəmin yaratmışdır. Korrupsiya, işsizliyik səviyyəsini artımı nəticəsində Ermənistandan kütləvi şəkildə əhalinin digər ölkələrə köçməsi baş vermişdir. Ermənilər qeyd edildiyi kimi torpaqa bağlı millət deyillər. Köçəri millət olduğunu desək daha doğru olar. İsrail politoloqu Kedmi qeyd edirdi ki, İsrail müstəqillik üçün uzun illər ərəblərlə mübarizə aparıb. Nəticədə özünə bir ölkə qurub. Qurduqdan sonra dünyada yaşayan yəhudilərə çağırış etdi ki, gəlin burada yaşayın. Yəhudilərin çox hissəsi geri döndü. Erməni də isə bu hissiyat yoxdur. Əksinə onlar digər ölkələrdə özlərini daha rahat hiss edirlər. Torpaq eşqi olmayandan sonra, iqtisadiyyatın dirçəlməyindən, dövlətin daha da, möhkəmlənməyindən danışmaq yersizdir".

Aynurə Pənahqızı

Tələbə qız şəhidlərimizin portretini çəkir

Ziba Həsənovanın qəhrəmanlarımıza qarşı sevgisi tükənməzdir



Vətən savaşı bitəndən sonra bəzi soydaşlarımız, xüsusilə də gənclərimiz şəhid və qazilərimizin xatirələrini əbədiləşdirmək naminə fərqli təşəbbüslər irəli sürdülər. Kimi kitab yazdı, kimi musiqi bəstələdi, kimi də bir başqa formada ehtiramını göstərdi.

BDU-nun Coğrafiya fakültəsinin birinci kurs tələbəsi, gənc və istedadlı rəssam Ziba Həsənova da tarixi zəfərimizə və qələbəni bizə bəxş edən qəhrəmanlarımıza biganə qalmadı. Onun müxtəlif döyüşçülərimizə həsr etdiyi portretlər sosial şəbəkələrdə sürətlə yayıldı, rəğbətlə qarşılandı.

Odur ki, "Şərq" olaraq istedadlı və vətənpərvər gəncimizin bu təşəbbüs barədə fikirlərini öyrəndik:

"Əslində portretlərin necə meydana çıxdığını özüm də bilmirəm. Bütün bunlar müharibə bitdikdən bir neçə gün sonra, şəhidlərimizə olan sevgi sayəsində baş verdi. İndiyədək Milli qəhrəmanlar Mübariz İbrahimovun, Çingiz Mustafayevin, Əliyar Əliyevin, II Qarabağ müharibəsinin qəhrəmanları Polad Həşimovun, Cəbrayıl Dövlətzadənin, Cavid Mahmudovun, Anar Mürsəliyevin, həmçinin 20 Yanvar şəhidləri İlham və Fərizənin, Larisa Məmmədovanın portretlərini çəkmişəm. Hazırda digər şəhid və qazilərimizin xatirələrini əbədiləşdirməkdəyəm. İctimaiyyətin, o cümlədən BDU rəhbərliyinin təşəbbüsümü dəstəkləməsi məni daha də həvəsləndirdi. Əlbəttə, bu, çox fərəhli və sevindiricidir. Çünki şəhidlərimizin ailələrinə az da olsa, təsəlli verə bilirəm. Allahdan başqa nə istəyərəm ki?".

Kənan Novruzov

Bəhram Bağırzadənin anası koronavirusa yoluxub

Azərbaycanın Əməkdar artisti Bəhram Bağırzadənin anası koronavirusa yoluxub.

"Report" xəbər verir ki, bu barədə B.Bağırzadə özü məlumat verib.

Onun sözlərinə görə, anası - 74 yaşlı Tahirə Əfəndiyeva komaya düşüb və hazırda ağır vəziyyətdədir.

Əməkdar artist anasına təcili qan köçürülməsinin lazım olduğunu bildirib.

Xatırladaq ki, bir müddət əvvəl - Əməkdar artist Bəhram Bağırzadənin özü də koronavirusa yoluxmuşdu. Bəhram Bağırzadənin müalicəsi Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın nəzarətində olub. Müalicələrdən sonra B.Bağırzadə sağalıb.

Yeni reallıqlar yaranıb, Makron bunu anlamalıdır

Fransanın ermənipərəst mövqeyi dağıdıcı məqsədlərə xidmət edib

"Fransa Prezidenti Emmanuel Makronun erməni icmasının nümayəndələri ilə görüşü zamanı ifadə etdiyi fikirlər onun ermənipərəst, islamafob mövqeyinin növbəti etirafı və ifşasıdır. Ümumiyyətlə, biz bu zamana qədər, xüsusilə də 44 günlük müharibə dövründə Fransanın ermənipərəst mövqeyini müşahidə etmişik. Bu dövlət ATƏT-in Minsk qrupunun həmsədri mandatını daşımasına baxmayaraq, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi ilə əlaqədar qərəzli, birtərəfli yanaşma ortaya qoyub". Bu sözləri politoloq Nurlan Qələndərli "Şərq"ə açıqlamasında deyib.

Politoloq qeyd edib ki, Fransanın bu mövqeyi status-kvonun qorunub saxlanması, Ermənistanın işğalçı siyasətinin davam etməsi və separatizmin hökm sürməsi kimi dağıdıcı məqsədlərə xidmət edib: "Təbii ki, bu, qəbuledilməz və yolverilməzdir. Elə Makronun erməni icmasının nümayəndələri ilə görüşdə səsləndirdiyi fikirlər də Fransanın ATƏT-in Minsk qrupu həmsədr ölkəsi olaraq bu zamana qədər hansı funksiyanı yerinə yetirdiyini göstərir. Daha dəqiq desək, Fransa ATƏT-in Minsk qrupunun həmsədri kimi vasitəçilik missiyasını yerinə yetirərkən Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və ərazi bütövlüyü çərçivəsində həlli istiqamətində fəallıq nümayiş etdirməli idi. Amma biz bunun tamamilə əksini müşahidə etdik, Fransanın tərəf kimi çıxış etdiyini, ermənipərəst mövqe nümayiş etdirdiyini və vasitəçilik missiyasını "təcavüzkar Ermənistanın mövqeyini müdafiə etmək" kimi anladığını gördük".

N.Qələndərli əlavə edib ki, eyni zamanda, son faktlar onu göstərir ki, Makron erməni lobbisi və diasporunun təsiri altındadır: "Azərbaycan döyüş meydanında öz sözünü deyərək Dağlıq Qarabağ münaqişəsinin hərbi-siyasi yolla həllinə nail olub, Ermənistanı diz çökdürərək kapitulyasiya aktını imzalamağa məcbur edib. Fransa isə hələ də məğlub, təcavüzkar Ermənistanın mövqeyini müdafiə etməyə çalışır. Dolasıyla, Makronun mövqeyi Fransanın milli maraqlarına zərbədir. Yəni bu, tamamilə yanlış siyasətdir. Fransanın rasional dövlət ağlı varsa, reallığı qəbul və dərk etməlidir. Anlamalıdır ki, Cənubi Qafqazın lider dövləti olan Azərbaycan işğalçını cəzalandırıb və yeni reallıqlar yaradıb".

Aynurə Pənahqızı

Paşinyan istefaya getməyə hazırdır

Kremlin "oyuncağı"nı nə Tramp qəbul edir, nə də Bayden

Ermənistanın baş naziri Nikol Paşinyan istefaya gedib-getməyəcəyinə aydınlıq gətirmək məqsədilə "Facebook" səhifəsində paylaşım edib. O, paylaşımında deyib: "Xalqın qərarı nəticəsində baş nazir postundan getməyə hazıram. Baş nazir postunu yalnız xalqın qərarı ilə tərk edə bilərəm.

Xalqın inamı yenidən bərpa olunacağı təqdirdə, bu çətin dövrlərdə də Ermənistan Respublikasının rəhbərliyini davam etdirməyə hazıram. Bütün bu sualların cavabını almaq üçün yalnız bir yol var - xüsusi parlament seçkiləri keçirmək. Parlamenti və parlamentdən kənar qüvvələri 2021-ci ildə növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı məsləhətləşmələrə dəvət edirəm".

"Məsləhətləşmələrə davam edirəm" ifadəsi əslində özü-özlüyündə onun sərbəst olmadığının, müstəqil qərar vermədiyinin göstəricisidir. Amma bu məsələnin üstündə çox da dayanmadan diqqəti başqa bir məqama çəkək: az qala, elə hakimiyyətə gəldiyi ilk aylardan etibarən onun devriləcəyini eşidirik. Təkcə biz yox, erməni xalqı özü də hər səhəri ümidlə açır. Amma nə çarə? Etiraf etmək lazımdır ki, bütün siyasəti yalan üzərində qurulan bir adam üçün belə bleflər o qədər də təəccüblü deyil. Amma səhv işləyən saat belə, arada bir doğru vaxtı göstərir axı Bəlkə, Paşinyan, nəhayət, "taxt"ından vidalaşmaq ərəfəsindədir?

Politoloq Fikrət Sadıqov Ermənistandakı daxili vəziyyəti "Şərq"ə təhlil edərkən bildirib ki, baş nazirin devrilməsi onun öz arzusu da ola bilər:

"Sadəcə özünə bəraət qazandırır və demokratik lider imici yaratmaq istəyir"

"Xalqı, insanları hədələyərək hakimiyyətə gələn, onları təhdid edən adam indi necə demokratiyadan danışa bilər?! Bu, gülüncdür. Yazdığı status onu deməyə əsas verir ki, Paşinyan istefaya getməyə hazırdır. Sadəcə özünə bəraət qazandırır və demokratik lider imici yaratmaq istəyir.

Paşinyanın taleyi ABŞ-ın yeni prezidenti Co Baydenin əlində deyil. Nə Tramp, nə də Bayden Ermənistan baş nazirini lazımi qədər dəstəkləyir. Çünki ikisi də başa düşürlər ki, səriştəsiz lider Kremlin "oyuncağı"dır. Ona görə də rəsmi dəstək vermirlər".

F.Sadıqovun fikrincə, hakimiyyət dəyişikliyindən asılı olmayaraq atəşkəs hələ bir müddət stabil qalacaq: "Yeni müharibənin başlanmasını düşünmürəm. Birincisi, ona görə ki, biz torpaqlarımızı azad etmişik. Ermənistan yenə torpaqlarımıza göz dikəcək? İnanmıram. İkincisi isə düşmən çox zəifləyib. Nəyəsə gücü qalmayıb. Düzdür, hədə-qorxu gələ, qurultulu bəyanatlar səsləndirə bilərlər. Amma onları əməldə görməyi gözləmək lazım deyil".

Kənan Novruzov

“Vaksinin insan orqanizminə heç bir zərərli təsiri ola bilməz”

Professor: “İnsanları qorxutmaq, onları stress və ruhi sarsıntıya salmaq olmaz”

"1920-ci illərdəki pandemiyada hətta səhər özünü sağlam hiss edən şəxs günorta xəstələnir, hətta axşam ölürdü. Amma COVİD-19 belə infeksiyalardan deyildir. Onun letallığı çox aşağı, RO indeksi isə cəmi 2,2-dir. Yəni bu infeksiya insanlıq üçün son və ya faciə deyildir. Bəli, digərləri kimi bu infeksiyadan qorunmanın da əsas yolu vaksinasiyadır".

Bu sözləri ”Şərq”ə açıqlamasında tibb elmləri doktoru, professor Musa Qəniyev deyib.

Professor qeyd edib ki, vaksin istər klassik, istərsə də ən müasir yolla alınsın, onun insan orqanizminə heç bir zərərli təsiri ola bilməz. Yəni genom, enzim patalogiyası olan az sayda insanlar nəzərə alınmazsa. Vaksinlərin əlavə effektinin olmaması üçün yeganə şərt onların təmizlik dərəcəsinin yüksək olmasıdır. Hazırda tövsiyyə olunan vaksinlərdə bunun

"COVİD-19-un özündən daha qorxulu və ağır mutasiyası, bu infeksiya tamamilə sönəndən yalnız 10 il sonra ola bilər"

nəzərə alınmaması qeyri - mümkündür”. *Həkim vurğulayıb ki, insanları qorxudan digər məsələ isə vaksinlərin hələ tam öyrənilməməsi, yəni onların tədqiqatının yalnız klinik sınaqların III mərhələsində olması və s. kimi fikirlərdir:* ”Bildirmək istəyirəm ki, istənilən dərmanın, vaksinin və s. tam tədqiqi üçün illərlə davam edən tədqiqatların aparılması qanundur və mütləq tələbatdır. Eksperimental və klinik sınaqların tamamilə başa çatması üçün, ümumilikdə 12-15 ilə qədət vaxt tələb olunur. Ancaq zərurət yarandığı, ekstremal hallarda, hətta ilkin-birinci mərhələdə 50 faizli müsbət nəticənin alındığı təqdirdə belə, bu vaksin və ya dərman preparatının klinikaya tətbiqi mütləq göstərişdir. Bu halda heç bir qorxulu əks effekt törənə bilməz. COVİD-19-un insanlarda qorxu, stress yaratmağa yönələn 100-lərlə mutasiyası haqqında fikirlər də əsassızdır. Bilmək lazımdır ki, viruslar ”obliqat, mikrocanlılardır və bu səbəbdən də heç bir halda yoluxdurduğu hüceyrəni məhv etmək istəmir. Əks halda o özü də məhv olur. Odur ki, virus qonaq olduğu hüceyrəyə uyğunlaşmaq, onunla birgə yaşamaq üçün dəyişikliyə məruz qalır. Bu hal mütləqdir və ümumi yaşam qanunudur. Bunu mutasiya kimi təqdim edib, insanları qorxutmaq, onları stress və ruhi sarsıntıya salmaq olmaz. Bilin ki, COVİD-19-un özündən daha qorxulu və ağır mutasiyası, bu infeksiya tamamilə sönəndən yalnız 10 il sonra ola bilər”.

Aynurə Pənahqızı

Yaxınlarını itirənlər heç nə ilə təsəlli tapa bilmir

Həkim: “COVİD-19 xəstəsinin boğulmasının 80 faiz səbəbi əslində psixolojidir”

”COVİD-19 səbəbindən bir çoxunda panik atak var. Müraciətlərin çoxunda baxırsan ki, bu pasientə əslində psixoloq yardımı lazımdır”.

Bu sözləri ”Şərq”ə açıqlamasında anesteziologreanimatoloq Şahin Məmmədov deyib. Həkim qeyd edib ki, koronavirus səbəbindən həyəcan, xəstəlikdən qorxu həddən artıq çoxalıb: ”COVİD-19 xəstəsinin boğulmasının 80 faiz səbəbi əslində psixolojidir. Bilirsiz niyə? İnamsızlığa görə. İlk olaraq həkimlərə, səhiyyəmizə inanmırlar. Ateistlər də insanların olan-qalan ümidini, təsəllisini məhv edib, beləcə Allaha da inanmırlar. Yaxınlarını itirənlər heç nə ilə təsəlli tapa bilmir. Hətta yaxınları ağır vəziyyətdə olanlar elə bilirlər COVİD-19 reanimasiyasından sağ çıxmaq təyyarə qəzasından sağ çıxmağa bənzəyir. Xəstələriniz hazırda reanimasiyadadırsa səbrli, təmkinli olun, və şad xəbərlər gələcəyinə inanın”.

Aynurə

Arxayınlaşmaq olmaz

Peyvənd oldu, olmadı maskalardan mütləq istifadə olunmalıdır

Avropa koronavirus əleyhinə peyvəndləməyə başladı. Avropa İttifaqı ölkələrində peyvəndləmə "Pfizer" və "BioNTech" şirkətləri tərəfindən istehsal olunan dərman vasitələri ilə aparılır. Peyvəndlər Avropa Dərman Agentliyi tərəfindən təsdiqlənib.

Dərmanın gətirilməsi Almaniya, Fransa, İtaliya, İspaniya, Avstriya və Bolqarıstana həyata keçirilir. Belçika və Lüksemburqda vaksinləməyə 28 dekabrdan başlanıb. Niderlandda isə 8 yanvar tarixindən başlanacaq.

Qardaş Türkiyədə COVİD-19 əleyhinə peyvəndləmənin başlanması isə ləngiyir. Türkiyə Səhiyyə naziri Fahreddin Koca bildirib ki, ləngiməyə səbəb Çinin gömrük-keçid məntəqələrində zəruri yoxlama tədbirlərinin həyata keçirilməsidir. F.Koca qeyd edib ki, vaksinlərin ölkəyə gətirilməsində bir-iki gün geçikmə olacaq. Nazir həmçinin peyvəndin məcburi olmadığını, lakin zəruriliklə bağlı əhali arasında lazımi qaydada təbliğat aparılmasının vacibliyini vurğulayıb.

Koronavirusa qarşı peyvəndləmə aksiyasına başlamış Avropa ölkələrində isə əhali tibbi maskalardan xilas olacaqlarına sevinir. Amma mütəxəssislər peyvəndə güvənib karantin qaydalarını görməzdən gəlməyin ağır nəticələr yarada biləcəyinə diqqət çəkir. Mütəxəssislər bu fikirdədir ki, peyvəndin müsbət nəticələri, peyvənd olunmuş insanların artıq heç bir təhlükə və risk daşımadığı rəsmi təsdiqlənməyədək karantin qaydalarına indiyədək olduğu kimi ciddi əməl edilməlidir. Tibbi maskaların taxılmaması, sosial məsafənin gözlənilməməsi və bu kimi karantin tələbləri tez-tez pozulacağı təqdirdə yoluxma sayında arzu edilən enməyə nail olmaq çətinləşəcək.

Təcili Tibbi Yardım Stansiyasının həkimi, terapevt Şahvələd Məmmədov ”Şərq”ə açıqlamasında karantin qaydalarına əməl edilməsinin birmənalı olduğunu dedi:

- Heç kim arxayınlaşmasın ki, peyvənd olundum, koronavirusdan xilas oldum. Birincisi, Azərbaycanda COVİD-19 əleyhinə vaksinasiya hələ başlamayıb. Vaksinasiyanın başlanacağı tarix də tam dəqiqləşməyib. Bildiyimiz budur ki, vaksinasiya məcburi deyil, könüllüdür. Amma dövlət vətəndaşların təhlükəsizliyini əsas götürərək ilk növbədə yaşlı insanlar və tibbi personalın peyvəndlənməsinə başlanmasına önəm verir. Peyvənd yoluxma riskini 94-95 faiz azaldır. Amma peyvəndləmə gərək başlasın, nəticələr bəlli olsun, yoluxma sayının maksimum enməsi, ağır, həmçinin tənəffüs aparatına bağlı xəstə sayının, evə müalicə alan xəstə sayının, o cümlədən də ölüm sayının azalması baş verməlidir ki, biz koronavirusa yoluxma zəncirinin qırıldığını iddia edə bilək. Lakin nə bu zaman, nə də yoluxma dinamikasında müsbət azalma, ölüm hallarının sıfırlanması baş verdikdə belə, biz karantin qaydalarını pozmamalıyıq. Əksinə, daha da ciddi riayət etməliyik ki, yoluxma təkrar artmasın. Xəstəliyin azalması, sonra isə tədricən aradan qalxması hər birimizin davranışlarından asılı olacaq. Tibbi maskalardan istifadə mütləqdir. Orqanizmin sağlam olmasını, yoluxmaya məruz qalmağımızı istəmiriksə, tibbi maskalardan istifadə etməliyik, həm də düzgün istifadə etməliyik. Bəzən görürsən, vətəndaş maska taxıb, amma maskadan əsər-əlamət qalmayıb. Açıq görünür ki, bəlkə də bir aydır, bəlkə də aylardır eyni maskadan istifadə edir. Maska didilib, tiftiklənib, həm də çirklidir. Belə maskanı taxmağın nə mənası var?

Doktor qeyd etdi ki, hazırda aptekl ərdə, hətta marketlərdə də tibbi maskalar satılır. Sağlamlığın qayğısına qalaraq tibbi maskaları tez-tez dəyişmək, dezinfeksiyaedici məhlullardan intensiv istifadə etmək lazımdır. Sosial məsafənin gözlənilməsi də həmçinin vacibdir. Ş.Məmmədov kütləvi yeni il məclislərindən çəkinməyi də tövsiyə etdi. Çalışaq, yeni ilə yoluxmuş halda qədəm basmayaq.

Məlahət Rzayeva

"Biz karantin qaydalarını pozmamalıyıq. Əksinə, daha da ciddi riayət etməliyik ki, yoluxma təkrar artmasın"

Qarabağa qayıdış Bakıda yaşayış binalarının qiymətinə necə təsir edəcək?

Məcburi köçkünlərimizin doğma yurdlarına qayıdışı Bakıda yaşayış binalarının və torpaqların qiymətinə təsir etməyəcək.

Bunu Trend-ə əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı deyib. Ekspert bildirir ki, işğaldan azad olunmuş torpaqlara qayıdış bir neçə il çəkəcək. Orada yeni yaşayış binalarının tikilməsi nəzərdə tutulur. Həmin rayonların yenidən qurulmasına həm dövlət, həm də xarici şirkətlər investisiya qoyacaq. Çox adam düşünür ki, Bakıda yaşayan məcburi köçkünlər öz yurdlarına qayıtsa, yaşayış binalarının və torpaqların qiymətləri düşəcək. Bu belə deyil. Çünki rayonlarda torpağın qiymətinin bahalaşıb, ya ucuzlaşacağı Bakının torpaq bazarına və yaşayış binalarının qiymətinə heç bir təsiri yoxdur. Əksinə əmlak bazarında qiymətlər qalxa bilər.

Aznif Baqdasaryan Ermənistana təhvil verilib

Oktyabrın əvvəlində girov götürülən Ermənistan vətəndaşı Aznif Baqdasaryan Ermənistana təhvil verilib.

APA-nın ”Sputnik Armeniya”ya istinadən xəbərinə görə, bu barədə A. Baqdasaryan özü bildirib. O qeyd edib ki, digər 3 əsirlə bərabər Ermənistana təhvil verilib: ”Mən artıq bir neçə gündür evimdəyəm”.

Koronadan da təhlükəli yeni ştamm gəlir...

"Məhz vaksinasiya insanları normal və təhlükəsiz həyata qaytara biləcək"

Koronavirusun Böyük Britaniyada yayılan yeni ştammı İspaniyada da qeydə alınıb. Madriddə ən azı dörd nəfərdə COVID-19-un yeni mutasiyası aşkar edilib.

İlkin məlumata görə, həmin şəxslər Britaniyadan gələnlər olublar. Xatırladaq ki, bir sıra dövlətlər koronavirusun yeni ştammı tapılan Britaniya ilə hava əlaqəsini dayandırıblar.

Mövcud durum ölkəmizdə də təlaşa səbəb olub. COVİD-19 ilk dəfə Çində yayıldığı zamanlarda ölkəmiz üçün hansısa təhlükənin olacağını ehtimal etmirdik. Hətta bu virus o qədər də ciddi qəbul edilmirdi. Lakin COVİD-19 nəinki Azərbaycan, bütün dünyada tüğyan etdi. Son günlər isə koronavirusun yeni ştammı böyük narahatlıqlar yaradır.

Çünki virusun yeni mutasiyası sürətli şəkildə yayılmaq qabiliyyətinə malikdir. Bu baxımdan dövlət və cəmiyyət olaraq maksimum dərəcədə diqqətli və məsuliyyətli olmaq vacibdir.

Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Ayaz Hüseynov "Şərq"ə bildirib ki, Böyük Britaniya, Hollandiya və bir neçə Avropa ölkəsində mutasiyaya uğramış COVİD-19 virusunun hazırkı adı B.1.1.7 kimi qeydə alınıb: "Mutasiyaya uğramış virusun yoluxma riskinin 70 faiz daha yüksək olduğu aşkar edilib. Bir çox ölkələrin Böyük Britaniya ilə yollarının bağlanmasını müşahidə edirik. Hazırda çox həssas və təhlükəli dönəm yaşayırıq. Bu dönəmdə virusun yayılmaması üçün bütün qabaqlayıcı təhlükəsizlik tədbirlərini görmək vacibdir".

Assosiasiya sədrinin fikrincə, sevindirici hal ondan ibarətdir ki, COVİD-19 virusuna qarşı vaksinasiya həm də mutasiyaya uğramış virusun öhdəsindən gələcək: "Məhz vaksinasiya insanları normal və təhlükəsiz həyata qaytara biləcək. Yuxarıda deyilənləri nəzərə alıb, vaksinlərin ölkəmizdə tətbiq olunmasını tezləşdirmək və planlı şəkildə tətbiq etmək mütləqdir".

Yeganə Bayramova

Əyani dərslər başlayanda görüləsi işlər var

Keçilməyən mövzular sürətləndirilmiş proqramla uşaqlara çatdırılacaq

Mart ayından etibarən tətbiq olunan onlayn tədris sistemi ortaya ciddi problemlər çıxarıb.

Şagirdin texniki imkanları - kompüter, planşet və interneti varsa, dərslərdə iştirak edə bilir. Lakin texniki imkanları olmayanlar tədrisə qoşula bilmir".

Bu sözləri "Şərq"ə açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib. Onun sözlərinə görə, əyani tədrisə icazə verdikdən sonra şagirdlərin məktəbə uyğunlaşması dövrü başlayacaq: "Yəni birbaşa şagirdlərə akademik biliklərin öyrədilməsi nəzərdə tutulmur. Tədris üç mərhələdə həyata keçiriləcək. Öncə bir həftə şagirdlərin məktəbə adaptasiya prosesi gedəcək.İ ndiyənə qədər uşaqlar 3 ay yay tətilində məktəbdən uzaq qalırdı. Sentyabr ayında dərsə başlayanda müəyyən uyğunlaşma problemləri yaranırdı. Xüsusilə də ibtidai sinif şagirdlərində bu hal müşahidə edilirdi. İkinci məsələ dərs saatlarıdır. Müəyyən qədər tənəffüslərin sayı artırılacaq. Şagirdlər informasiya yükünə məruz qalmayacaq. Sonra pandemiya dövründə keçirilməyən mövzular təkrar ediləcək. Həmin mövzular sürətləndirilmiş proqramla uşaqlara çatdırılacaq. Çünki öyrənmədikləri materiallar yuxarı siniflərdə onlara ciddi problem yarada bilər. Tədris prosesində fənnlər arası əlaqə var. Hansısa mövzunun öyrənilməməsi problem yaradır. Əsas dərinləşdirilmiş, sürətləndirilmiş proqramla şagirdlərə keçirilməyən mövzuların yenidən çatdırılmasıdır. Əlbəttə, yeni dərsliklərin hazırlanması da gündəmdədir. Onlar üçün xüsusi proqram əsasında dərsliklər hazırlanmalıdır. Bu kompensasiyaedici təhsil adlanır. İnanıram ki, boşluqlar doldurulacaq. Qeyd etdiyim proqramlar üzərində işləniləcəkdir".

Samirə

Savaşdan dönənlərə psixoloq yardımı mütləqdir

İkinci Qarabağ müharibəsininin iştirakçıları artıq evlərinə qayıdır. Şübhəsiz 44 günün ağrısını, acısını onlar görüb, yaşayıblar. Bizim əlimizdən ancaq dəstək olmaq, yaralarına məlhəm axtarmaq gəlir.

Yəqin ki, dövlət və QHT layihələri olacaq

Bu səbəbdən də zaman-zaman psixoloqlarla həmsöhbət olub, savaşçılarımızın psixoloji durumu haqqında danışırıq.

Mövzu ilə bağlı psixoloq Fərqanə Mehmanqızı "Şərq"ə açıqlama verib. O müharibə iştirakçılarında psixoloji narahatlıqların olduğunu təsdiqləyib: "Şəhid olanları gözləri ilə görən insanların sarsıntılarını görməmək mümkün deyil. Onların heç nə olmamış kimi sivil həyata davam etmələrini gözləmək absurddur. Məsələyə ciddi, anlayışlı yanaşmalıyıq. Ölümlə üz-üzə olmalarını, dostlarını itirmələrini anlamalı, empatiya bacarığımızı inkişaf etdirməliyik. Müharibədə başlarına gələn hadisələri dinləməliyik. İnsanlar hər hansı hadisəni öz psixoloji durumuna uyğun qavrayır. Reaksiyası psixologiyasına görə olur. Heç kim deyə bilməz ki, "mən beləyəm, o biri niyə fərqlidir". Bəziləri savaşdan sonra özünə qapanır, kimisi də eyni hadisəni dəfələrlə danışır. Bəlkə də onların sadəcə dinlənilməyə ehtiyacı var. Heç bir rəy bildirmədən əvvəlcə qulaq asmalıyıq. Əgər danışmaq istəyirlərsə, danışacaqlar. Yaxud da danışmaq istəmirlərsə, onları məcbur etməyək. Yenə də özlərinə qapanmalarını aradan qaldırmaq üçün maraqlanmalıyıq, diqqət göstərməliyik. Düşünürəm ki, döyüşçülərlə psixoloqlar söhbət etməlidirlər. Yəqin ki, dövlət və QHT layihələri olacaq. Hər hansı bir tədbir görüləcək. Qazilərimizlə, döyüşçülərimizlə psixoloqlar fərdi və qrup şəklində işləməlidir. Onların cəmiyyətə inteqrasiyası, aldıqları travmanı aradan qaldırmaq üçün psixoloq dəstəyi vacibdir".

2021-ci ilin 5 fevralından XAOS bitir

Ekstrasens 2021-ci il üçün proqnozunu verib

(Əvvəli səh: 16-da)

Pandemiya təkcə virus və xəstəlik deyildi. O, bioterapiya idi. Virus onkoloqları xərçəng xəstələrinə təyin etdiyi kimyaterapiya kmidir.

İlk baxışdan ağırdır, zərərlidir, orqanizm üçün zəhərdir, amma eyni zamanda dərmandır. Məsələ ondadır ki, xəstənin xilası onun nə qədər gücünün qalmasından asılıdır. Bu gün pasiyentlər təkcə virusa yoluxanlar deyil, bütün insanlıqdır.

2021-ci ilin 5 fevralından Xaosdan sonrakı ilin başlanğıcı qoyulur. Bu dövrə kimi yer əhalisinin bioterapiyası davam edəcək.

Fevraldan sonra nisbi sakitlik gələcək, hər şey azalmağa başlayacaq, amma pandemiyanın zərərləri maya kimi hiss olunacaq. Amma artıq Yer Xaosda olmayacaq. (Medicina.az)

Sağalmaq dövrü gəlir. Çoxları deyəcək ki, bəli, vaksinlər uğurlu oldu, peyvəndləmə virusu azaltdı. Amma bu sadəcə separasiyanın, bioterapiyanın bitməsi deməkdir. Qalanları bəhanədir.

Bu pandmeyanın əsas qlobal məqsədi və işi insan populyasiyası genetikasını dəyişmək idi. Demək olar ki, virusun keçmədiyi yaşlı orqanizm qalmadı. Yalnız bir kateqoriyaya toxunmadı: uşaqlar. Koronavirus 4 nəsil boyu çoxlu karmik səhv və günahlar edən şəxslərə yoluxur. Uşaqların isə bu səhvləri hələ düzəltməyə vaxtı olduğu üçün onlara zaman verildi. Təbiət onlara qarşı rəhmli oldu.

2021- Zəhmət ilidir

İl durmadan çalışmaq, qurmaq, yaratmaq, alın təri tökmək tələb edir. Tənbəllik olmaz.

Bu il alkoqollu içkidən uzaq olmaq lazımdır. Əgər Xaos ilində içki depressiyaya qarşı lazım idisə, bu il depressiya ilə mübarizə vasitəsi iş və əmək olmalıdır.

Kim Xaos ilindən sonra ətrafını, özünü, işini, evini sahmana salsa və başı yalnız iş görməyə qarışsa, onun da əməyi mükafatlandırılacaq".

Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

Reportyorlar qrupu: Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov

Texniki heyət: Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və **"Azərbaycan"** nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, **"Azərbaycan"** nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2945

1 milyon 144 min dollar qazandı

Quşları çəkən fotoqraf 9 milyonluq sərvət tapdı

İngiltərədə quşları çəkən fotoqraf gözləmədiyi halda sürprizlə qarşılaşıb. O, quşları izlədiyi zaman qarşısına qədim sandıq çıxıb.

Beləki 2 min il yaşı olan sandığın içərisindən 1 milyon 144 min dollar *(təxminən 9 milyon Türkiyə lirəsi)* dəyərində qızıl çıxıb. Hadisə antik şəhər qalıqlarının olduğu yerdə baş verib.

”Axşam tarlada quşları izləyir, şəkillərini çəkirdim. Bir qartalla sağsağanın dalaşmasını izlədim. Ərazidə qəribə bir əşya gördüm. (publika.az)

Öncə elə bildim ki, metal bur qurğudur. Yaxınlaşanda gördüm sandıqdır. Qapağını açdım, Kelt dövrünə aid qızılları gördüm” - deyə, fotoqraf bildirib.

Xüsusi xidmət orqanları "uçan adam"ı axtarır

ABŞ-da pilot təlim zamanı 900 metr hündürlükdə reaktiv mühərriklə uçan şəxsi telefonunun kamerası çəkib.

Oxu.az xəbər verir ki, görüntülər ictimailəşəndən sonra Federal Təhqiqatlar Bürosu bu şəxsi axtarmağa başlayıb.

Qeyd olunur ki, ”uçan adam” adlandırılan bu şəxs artıq bir neçə dəfə oxşar təhlükəli uçuşlar həyata keçirib və onun şəxsiyyətini müəyyənləşdirmək mümkün olmayıb.

“Başqa çarəmiz yoxdur"

Türkiyəli professor: “Peyvənd olunmayanlar avtobusa minə bilməyəcəklər”



”Mən peyvənd vurdurmayacam” deyənlər vətən xainidir!

Axar.az xəbər verir ki, bunu türkiyəli professor Bingür Sönməz deyib.

”İnsan bədəninin toxunulmazlığı səbəbilə kimisə peyvənd vurdurmağa məcbur edə bilmərik. Amma qaydalar qoyacağıq: peyvənd olunmayanlar dövlət idarələrinə girə bilməyəcəklər, avtobusa minə bilməyəcəklər. Başqa çarəmiz yoxdur”, - professor bildirib.

Eşq yaşayırlar

Demet indi də məşhur müğənni ilə sevgili oldu

Aktrisa Demet Özdemirin adı bu dəfə Oğuzhan Koçla hallanıb.

Bir müddət əvvəl Emirganda bir məkandan səhərə yaxın çıxarkən görüntülənən müğənni və aktrisa sualları cavabsız qoymuşdu. Daha sonra isə cütlük dost olduğunu, eşq yaşamadıqlarını açıqlayıb.

Özdemir ilə Koç son günlər bütün çəkiliş meydançasına birlikdə getməyə başlayıblar. Media nümayəndələrinin çox olduğu İstanbulun Bebek səmtində yaşayan Koç görüntülənməmək üçün Leventdə bir evə köçüb. Cem Yılmazla Ozan Güvenə qonşu olan müğənninin yeni mənzilində ilk ziyarət edən də Demet olub.

2021-ci ilin 5 fevralından XAOS bitir

Ekstrasens növbəti ilin proqnozunu verib

Məşhur rus ekstrasens 2021-ci il üçün proqnoz verib. Aleksandr Litvin yeni 2021-ci il üçün proqnozlarında pandemiya və iqtisadi vəziyyətin necə olacağına toxunub.

Ekstrasens gələn ili Xaosdan bərpa ili adlandırıb.

“Gələn il təbiətin tsikli pozulacaq. Bu barədə qədim Eklesistdə də deyilib. Orda qeyd olunub ki, əvvəlki il Xaos dövrü olub. 2020-ci il sahmanın pozulması, xəstəliklər ili olduğu üçün, qanunauğunluğa uyğun olaraq, gələn il şəfa və bərpa ili olacaq. Bu təkcə fiziki yox, ruhi mənəvi sağalma ilidir. Xaos bitəcək, bəşəriyyət dərindən təmizləmə, sahman yaratmaq, yenidən qurmaq dövrünə qədəm qoyacaq. İnsanlar Xaos təcrübəsini qazandılar, təcrübə topladılar. Biz indi həqiqi nizam intizam necə olmalıdır bilirik. Ötən 2 ildə itirilən bütün dəyərləri pillə-pillə bərpa edəcək, daha dərindən qiymətini biləcəyik.

(Davamı səh: 15-də)

İsveçrədə bir gecədə yüzlərlə turist yoxa çıxıb

İsveçrənin məhşur Verbier xizək kurortundakı hotellərin birindən yüzlərlə britaniyalı turist yoxa çıxıb və bir-biri ilə əlaqəni kəsib.

Sputnik Azərbaycan xarici mətbuata istinadla xəbər verir ki, Böyük Britaniyadan məcburi karantin əmri alan 350-dən çox turist hoteldən qaçıb. Hotel sahibləri qonaqlar üçün göndərdikləri səhər yeməklərinin toxunulmamış qaldığını görüb, onlarla əlaqə saxlaya bilmədikləri üçün polisə müraciət ediblər. Turistlərin gecə saatlarında hoteldən ayrıldıqları güman edilir. Buna baxmayaraq, səlahiyyətlilər britaniyalıların hara qaçdıqları barədə məlumatsızdırlar. Çünki İsveçrədən uçuşların sayı xeyli azaldılıb. Karantin pozuntusuna görə cərimənin 10 min İsveçrə frankına (demək olar ki, 830 min rubl- 18 min manat) çata biləcəyi bildirilir. Bundan bir müddət əvvəl isə, Böyük Britaniyada aşkar edilən koronavirusun yeni ştammının İsveçrədə də tapıldığı bildirilmişdi. Koronavirusun ”Britaniya” növünün yayılması səbəbindən İsveçrə səlahiyyətliləri Britaniya ilə uçuşları dayandırdı. Və dekabrın 14-dən sonra ölkədən uçan hər kəs üçün məcburi on günlük karantin tətbiq etdilər.

Çağlaya koronavirus vaksini vurdurdu

Türkiyəli model və aparıcı Çağla Şikel koronovirus peyvəndi etdirib.

Bu haqda Çağla sosial şəbəkədəki paylaşımında yazıb.

Peyvənd vurulan zaman lentə alınan fotosunu yayımlayan Çağla ”Könüllü olaraq koronovirus vaksinimi vurdurdum. Koronadan qorxun, peyvəndən yox” sözlərini yazıb.